**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "AZƏRBAYCANDA İNFLYASİYANIN ƏHALİ MƏŞĞULLUĞUNA TƏSİRİNİN TƏDQİQİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Ağalarlı Dəyanət Nahid**

**BAKI-2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**_________________________ imza**

**"____" _______________ 20__-ci il**

# "AZƏRBAYCANDA İNFLYASİYANIN ƏHALİ MƏŞĞULLUĞUNA TƏSİRİNİN TƏDQİQİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060404 "İqtisadiyyat"**

**İxtisaslaşma: "Makroiqtisadi siyasət"**

**Qrup: 64**

**Magistrant**
**Ağalarlı Dəyanət Nahid**
**____________________ imza**

**Elmi rəhbər**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab**
**____________________imza**

**Proqram rəhbəri**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab**
**_________________________ imza**

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi**
**_____________________imza**

**BAKI-2021**

## Elm andı

Mən, Dəyanət Ağalarlı Nahid and içirəm ki, "Azərbaycanda inflyasiyanın əhali məşğulluğuna təsirinin tədqiqi" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**“AZƏRBAYCANDA İNFLYASİYANIN ƏHALİ MƏŞĞULLUĞUNA TƏSİRİNİN TƏDQİQİ”**


**XÜLASƏ**

**Tədqiqatın aktuallığı: Makroiqtisadi mühitin sabitliyi biznes sferası üçün olduqca vacib rol oynayır və bu səbəbdən bir ölkənin ümumi rəqabət qabiliyyəti baxımından fövqəladə əhəmiyyət kəsb edir. Geridə qoyduğumuz 2015-ci il iqtisadi çətinlik və resessiya dövrünün ardından ölkədəki faktiki inflyasiya və işsizlik səviyyəsindəki dəyişikliklər, onun makroiqtisadi sabitliyə göstərmiş olduğu mənfi təsirlər və bu təsirlərdən qısa, orta və uzunmüddətli dövrlərdə məqsədyönlü qərarların qəbulu ilə minimal zərərlə çıxılması üçün inflyasiya və işsizliyin nəzəri əsasları dərindən mənimsənilməli və əldə edilmiş nəzəri biliklərin Azərbaycan nümunəsində hansı şəkildə özünü göstərdiyi müəyyənləşdirilməlidir.**

**Tədqiqatın məqsədi: təqdiqatın aparılmasında məqsəd Azərbaycanda inflyasiya səviyyəsinə təsir vasitəsilə gələcəkdə həyata keçiriləcək makroiqtisadi siyasətdə əvvəlki dövrlərin təcrübəsindən yararlanaraq hazırlanmış əsaslı istiqamət irəli sürən elmi bazanın formalaşdırılmasıdır.**

**İstifadə olunmuş tədqiqat metodları: Statistik analiz, qruplaşdırma, təsnif və müqayisə metodları, səbəb-nəticə analizi, analitik mühakimə, məntiqi əsaslandırma, faktiki materialların cədvəl və şəkil təqdimatı kimi metod və üsullardan istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Mərkəzi Bank, Maliyyə Nazirliyi və Statistika Komitəsi tərəfindən dərc olunan hesabatlar mövzunun analizinə təkan vermişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Dissertasiya işinin əsasını analitika və konkret faktlar təşkil etdiyindən statistik məlumatların yetərsizliyi qarşıdakı ən ciddi əngəl olaraq ortaya çıxırdı.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: dissertasiya tədqiqatının nəticələri və müddəaları, Azərbaycanda makro sabitliyi təmin etmək üçün inflyasiya və işsizlik səviyyələrinin idarə olunması siyasətinin təkmilləşdirilməsi üçün xüsusi tövsiyələr ilə müəyyən edilir.**

**Nəticələrin istafadə oluna biləcəyi sahələr: tədqiqat işinin nəticələri bu işin əsas tədqiqat obyektlərinin icraçılarının fəaliyyətinin qarşılıqlı əlaqəsini izah etdiyi üçün bu qurumların istifadəsi üçün vacib elmi ədəbiyyat rolunda çıxış edəcəkdir.**



***Açar sözlər: Azərbaycan, inflyasiya, məşğulluq, işsizlik***

## “THE STUDY OF THE IMPACT OF INFLATION ON EMPLOYMENT IN AZERBAIJAN”


## SUMMARY

**Actuality of the study: The stability of the macroeconomic environment plays a very important role for the business sector and is therefore extremely important in terms of the overall competitiveness of a country. After the economic downturn and recession of 2015, the changes in actual inflation and unemployment in the country, its negative impact on macroeconomic stability, and the theoretical basis of inflation and unemployment to overcome these effects with minimal losses in the short, medium and long term. It is necessary to master and determine how the acquired theoretical knowledge manifests itself in the example of Azerbaijan.**

**The purpose of the study: the purpose of the study is to form a scientific basis for the future macroeconomic policy in Azerbaijan through the impact on inflation, based on the experience of previous periods.**

**Research methods used: Methods and techniques such as statistical analysis, grouping, classification and comparison methods, cause-and-effect analysis, analytical judgment, logical justification, table and picture presentation of factual materials were used.**

**Research database: Reports published by the Central Bank, the Ministry of Finance, and the Statistics Committee provided impetus to the analysis of the topic.**

**Limitations of the research: The lack of statistical data was the most serious obstacle, as the basis of the dissertation was analytics and concrete facts.**

**Scientific novelty and practical results of the research: the results and provisions of the dissertation research are determined by special recommendations for improving the policy of inflation and unemployment management to ensure macro stability in Azerbaijan.**

**Areas where the results can be used: The results of the research will serve as an important scientific literature for the use of these institutions, as they explain the interrelationships between the activities of the executors of the main research objects.**



***Keywords: Azerbaijan, inflation, employment, unemployment***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

**AB** Avropa Birliyi

**ABŞ** Amerika Birləşmiş Ştatları

**APEC** Asia-Pacific Economic Cooperation

**BƏT** Beynəlxalq Əmək Təşkilatı

**BOJ** Yaponiya Bankı (Bank of Japan)

**DRC** Danimarka Qaçqınlar Şurası (Danish Refugee Council)

**DSMF** Dövlət Sosial Müdafiə Fondu

**ECB** Avropa Mərkəzi Bankı (European Central Bank)

**ƏƏSMN** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

**İKT** İnformasiya Kommunikasiya Texnologiyaları

**İQİ** İstehlak qiymətləri indeksi

**MDB** Müstəqil Dövlətlər Birliyi

**MKSİF** Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu

**NAIRU** İnflyasiyanı sürətləndirməyən təbii işsizlik nisbəti (Non-accelerating inflation rate of unemployment)

**OECD** İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (Organisation for Economic Co-operation and Development)

**UNCT** Unite Nations Country Team

**ÜDM** Ümumi Daxili Məhsul

**MÜNDƏRİCAT**

**GİRİŞ** ........................................................................................................ **8**

**I FƏSİL. İNFLYASİYA VƏ İŞSİZLİK ARASINDAKI ƏLAQƏNİN NƏZƏRİ ƏSASLARI** .................................................. Ошибка! Закладка не определена.**3**

1.1. İnflyasiya və İşsizlik ölkənin əsas makroiqtisadi göstəriciləri kimi .... **Ошибка! Закладка не определена.**3

1.2. İnflyasiya və İşsizlik dərəcələrinin effektiv səviyyədə saxlanılması dövlətin iqtisadi siyasətinin tərkib hissəsi kimi......... **Ошибка! Закладка не определена.**3

**II FƏSİL. AZƏRBAYCANDA İNFLYASİYA VƏ İŞSİZLİK SƏVİYYƏSİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ MAKROİQTİSADİ SABİTLİK KRİTERİYASINA UYĞUNLUĞU** ................................................................... **34**

2.1. Azərbaycanda inflyasiya və işsizlik səviyyəsinin hazırkı vəziyyətinin qiymətləndirilməsi ..................................................................................... 34

2.2. Bazar qiymətlərindəki dəyişiklik və məşğulluq səviyyəsinin paralel şəkildə effektiv səviyyədə saxlanılması cəhdləri .... **Ошибка! Закладка не определена.**6

**III FƏSİL. QİYMƏT SƏVİYYƏSİNDƏ SABİTLİYİN TƏMİN EDİLMƏSİNİN MƏŞĞULLUQ VƏ DOLAYISIYLA İQTİSADİ İNKİŞAFDA ROLU** ............................................................................................. **352**

3.1. Ölkədə məcmu qiymət səviyyəsinə təsir mexanizmlərinin təkmilləşdirilməsinin prioritetləri................................................ **Ошибка! Закладка не определена.**2

3.2. Azərbaycanda işsizlik səviyyəsinə edilən təsirlərin iqtisadi inkişafda rolu..... 58

**NƏTİCƏ VƏ TƏKLİFLƏR** ........................................................................ **64**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI** ........................................... **67**

**Cədvəllərin siyahısı** ................................................................................... **73**

**Şəkillərin siyahısı** ..................................................................................... **73**

**Sxemlərin siyahısı** ..................................................................................... **73**

# GİRİŞ

**Mövzunun aktuallığı:** Makroiqtisadi mühitin sabitliyi biznes sferası üçün olduqca vacib rol oynayır və bu səbəbdən bir ölkənin ümumi rəqabət qabiliyyəti baxımından fövqəladə əhəmiyyət kəsb edir. Təkbaşına makroiqtisadi sabitliyin bir xalqın məhsuldarlığını artıra bilməyəcəyi şübhəsiz ki, doğru olsa da, makroiqtisadi dağınıqlığın iqtisadiyyata genişmiqyaslı ziyan vurması danılmaz bir faktdır. Ötən iki onillikdə Avropa ictimaiyyətində gördüyümüz kimi, bir hökumətin keçmiş borclarına görə yüksək faiz ödəmələri etməsi lazım olarsa, həmin ölkənin xalqının səmərəli xidmətlərlə təminatı qeyri-mümkün hal alır. Bundan əlavə, firmalar inflyasiya səviyyəsinin nəzarətdən və idarəolunan həddən kənara çıxması şəraitində səmərəli fəaliyyət göstərə bilmirlər. Xülasə olaraq, makroiqtisadi sabitliyin əhəmiyyətini tək bir cümlə ilə ifadə etməli olarsaq, bunu aşağıdakı kimi qeyd edə bilərik: "Makro mühit sabit olmadığı müddətdə iqtisadiyyat davamlı və sağlam şəkildə böyüyə bilməz".

Hər bir iqtisadiyyatda makroiqtisadi siyasətinin aparılmasından məsul "sükanı idarə edən" bir aparat vardır. İlkin olaraq bu idarəedicilərdən müxtəlif makroiqtisadi xidmətlər göstərmələri, daha akademik şəkildə ifadə etsək, bəzi makroiqtisadi göstəriciləri ölkə əhalisinin rifah səviyyəsini yüksəldəcək və müzakirə olunan dövr üçün hər bir kriteriyaları nəzərə alaraq mümkün olan ən optimal səviyyədə qərarlaşdırması və buna nail olması gözlənilir. Qeyd olunan makroiqtisadi "xidmətlər"ə adambaşına düşən real ÜDM-nin yüksək səviyyəsi, aşağı inflyasiya faizi, yüksək məşğulluq səviyyəsi, əlverişli ticarət balansı və s. daxildir. Bu tədqiqat işi qeyd olunan faktorlardan ikisinə - inflyasiya və işsizliyə - eyni zamanda onlar arasındakı qarşılıqlı əlaqənin Azərbaycan nümunəsində araşdırılmasına istiqamətlmişdir.

Qlobal miqyasda əsası Yeni Zellandiyalı məhşur iqtisadçı Uilyam Filips tərəfindən irəli sürülmüş və daha sonra müxtəlif mövqelərdən çox sayda digər iqtisadçıların və iqtisadi fikir mərkəzlərinin inflyasiya və işsizlik səviyyələri arasında sarsılmaz əlaqənin olması ilə bağlı həyata keçirmiş olduqları elmi

araşdırmaların praktiki mahiyyətinin olduqca effektiv nəticələr verməsi öz təsdiqini tapmışdır. Belə ki, 1958-ci ildə Filipsin araşdırmasından sonra geridə qalan 60 il ərzində başda Samuelson, Solou və Fridman kimi iqtisadçıların işləri olmaqla çox sayda tədqiqatlar həyata keçirilmiş və əldə edilən nəticələr bir çox ölkənin makroiqtisadi qərarlarının qəbulunda təlimat kitabçası qismində çıxış etmişdir.

Hazırda kapitalist iqtisadi sistemin hökm sürdüyü bir çox ölkələrdə, o cümlədən Azərbaycanda hökumətlər özünün iqtisadi planlaşdırmalarında bənzər nəticələrdən yola çıxaraq qərarlar qəbul edirlər. Lakin bu sahədə məhz Azərbaycan modelində araşdırmaların istənilən səviyyədə olmaması mövzunun öyrənilməsini stimullaşdırır.

Geridə qoyduğumuz 2015-ci il iqtisadi çətinlik və resessiya dövrünün ardından ölkədəki faktiki inflyasiya və işsizlik səviyyəsindəki dəyişikliklər, onun makroiqtisadi sabitliyə göstərmiş olduğu mənfi təsirlər və bu təsirlərdən qısa, orta və uzunmüddətli dövrlərdə məqsədyönlü qərarların qəbulu ilə minimal zərərlə çıxılması üçün inflyasiya və işsizliyin nəzəri əsasları dərindən mənimsənilməli və əldə edilmiş nəzəri biliklərin Azərbaycan nümunəsində hansı şəkildə özünü göstərdiyi müəyyənləşdirilməlidir. Yuxarıda sadalananlar mövzunu kifayət qədər aktual və araşdırma üçün əhəmiyyətli hala gətirir. Tədqiqat zamanı müstəqillik dövrünü baza götürülərək 1991-ci ildən sonra mövzu üzrə araşdırılacaq olan 2 makroiqtisadi indikator - inflyasiya və işsizlik arasındakı əlaqənin Azərbaycanda hansı nəticələr hasil etdiyi müəyyənləşdiriləcək.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** mövzu üzrə həm Azərbaycanda həm də ki, digər ölkələr üzrə həm nəzəri, həm də empirik istiqamətli oduqca əhəmiyyətli sayılacaq bir sıra elmi tədqiqatlar aparılmış və əldə edilən nəticələrin müəyyən miqyasda praktiki tətbiqi həyata keçirilmişdir. Mövzu spesifik olaraq Azərbaycanı əhatə etdiyindən dolayı məsələni ölkəmizin aspektindən dəyərləndirmək daha məqsədəuyğun olacaqdır. Bu məqsədlə bu bölmədə əsasən ölkəmizi əhatə edən tədqiqat işləri haqqnda məlumata yer verilir. İnflyasiyanın səmərəli səviyyədə saxlanılması Mərkəzi Bankın başlıca məqsədlərindən biri

olduğundan dolayı, qurum tərəfindən bu sahədə dövrü olaraq araşdırma və təhlillər aparılır, yekun nəticələr rəsmi saytda dərc olunur ki, bunlara da tədqiqat boyunca toxunulacaqdır. Eyni zamanda inflyasiya və işsizliklə bağlı dataların başqa bir mənbəyi də Statistika Komitəsidir ki, bu dövlət icraedici orqanı da mövzu ilə bağlı rüblük və illik hesabatlarını planlaşdırılmış təqvimə əsasən mütəmadi qaydada təqdim edir. Lakin qeyd etməliyik ki, bu iki göstəricinin birlikdə araşdırılması və onlar arasındakı qarşılıqlı əlaqənin necəliyinin müəyyənləşdirilməsi ilə bağlı araşdırmalar müəyyən mənada diqqətdən kənarda qalmışdır. Önə çıxan araşdırmalar arasında Ağahüseyn Əliyev tərəfindən "Bazar İqtisadiyyatı Şəraitində İnflyasiyanın Tənzimlənməsi" mövzusunda aparılmış tədqiqat ön plana çıxır ki, burada müəllif inflyasiyanın işsizliyə təsirlərinə və onun Azərbaycandakı vəziyyətinə geniş yer vermişdir.

**Tədqiqat işinin məqsədi və vəzifələri:** təqdiqatın aparılmasında məqsəd Azərbaycanda inflyasiya səviyyəsinə təsir vasitəsilə gələcəkdə həyata keçiriləcək makroiqtisadi siyasətdə əvvəlki dövrlərin təcrübəsindən yararlanaraq hazırlanmış əsaslı istiqamət irəli sürən elmi bazanın formalaşdırılmasıdır. Belə ki, praktiki əhəmiyyət kəsb edəcək bu elmi araşdırma ölkədə işsizlik və inflyasiya göstəricilərinin effektiv səviyyədə saxlanılması üçün bu sahədə məqsədyönlü addımlar atan qurumların qərar qəbulunu daha da asanlaşdırmağa xidmət edəcəkdir. Bu məqsədlə aşağıdakı hədəflərə çatmaq planlaşdırılmışdır:

- İnflyasiya və İşsizliyin nəzəri əsaslarını açıqlamaq;
- İnflyasiya və İşsizlik səviyyələri üzrə bu ana qədər həyata keçirilmiş empirik araşdırmaları təhlil etmək;
- Bənzər empirik araşdırmaların Azərbaycan modelini tətbiq etmək;
- Aparılan ekonometrik analiz nəticəsində Azərbaycanda inflyasiya və işsizlik göstəriciləri arasındakı əlaqənin necəliyini müəyyənləşdirmək;
- Qeyd olunan faktorların hansı hədlərdə makroiqtisadi stabilliyə və rifah şəraitinə hansı formada təsir göstərməsini müəyyənləşdirmək.

**Tədqiqat işinin predmet və obyekti:** makrostabilliyin təmin edilməsinə yönəlmiş inflyasiya-işsizlik qarşılıqlı əlaqəsidir. Bu əlaqənin tənzimlənməsinin elmi-nəzəri əsasları və praktikası, habelə AMB-nin və Hökumətin pul və fiskal siyasətlərinin iqtisadi böyüməni və makrostabilliyi təmin edən alət və metodlarından istifadənin xüsusiyyətləri də buraya daxildir.

**Tədqiqatın informasiya bazası:** Azərbaycan Respublikasının bank və mülki qanunvericiliyi, Azərbaycan Mərkəzi Bankının (AMB) əsasnamələri, AMB-nin statistik və hesabat materialları, Statistika Komitəsinin dərc etdiyi əlaqəli mənbələr da daxil olmaqla müxtəlif statistik məlumatlardan ibarət olmuşdur. Əsərdə müxtəlif İnternet mənbələrindəki akademik materiallardan (kitab, jurnal, məqalələr və s.) geniş istifadə edilmişdir.

**Tədqiqat metodunun tətbiqi ilə aparılan təhlil:** Tədqiqat işinin ikinci fəslinin ərsəyə gəlməsində istifadə olunan metodlar dialektik məntiq, sistemli və bütöv yanaşma müddəalarından ibarətdir. Dissertasiya yazılarkən statistik analiz, qruplaşdırma, təsnif və müqayisə metodları, səbəb-nəticə analizi, analitik mühakimə, məntiqi əsaslandırma, faktiki materialların cədvəl və şəkil təqdimatı kimi ümumi elmi metod və üsullardan istifadə edilmişdir.

Bunlarla bərabər, deduksiya və induksiya metodlarından da istifadə olunmuşdur. Belə ki, induksiya metodu ilə tədqiqat işi haqqında iqtisadi dəlillər toplanmış, araşdırılmış və sistemləşdirilmişdir. Sintez metodu, daha detallı bir araşdırma məqsədi ilə fərdi elementləri bütöv hala gətirmək üçün istifadə olunmuşdur.

Bu metod təhlil metodu ilə olduqca sıx əlaqəlidir, çünki hər zaman fərdi analiz nəticələrini özündə cəmləyən əsas element kimi mövcuddur. Beləliklə məqalədə sistemli analiz metodu tətbiq edilir, buna uyğun şəkildə, problem iqtisadi inkişafa uyğun əlaqəli tarixi inkişaf yönündən təhlil olunur.

**Tədqiqatın məhdudiyyətləri:** Dissertasiya işinin bu hissəsini nəzəriyyədən daha çox analitika və konkret faktlar təşkil etdiyindən yetərli statistik informasiya bazasının olmaması və daha öncə birbaşa bu haqda analitik yanaşmamanın qıtlığı

qarşıdakı ən ciddi əngəl olaraq ortaya çıxırdı. Bu maneələrin aradan qaldırılmasında iki fərqli taktikaya müraciət olundu. Birincisi əldə olan yetərsiz statistik məlumatlar daha kiçik periodlar üzrə bölünərək müşahidələrin sayı artırıldı və bu da tədqiqat işinin əsas iki determinantı arasındakı qarşılıqlı əlaqəni daha yaxşı anlamağa imkan verdi. İkincisi isə digər ölkələrdəki bənzər vəziyyətlər üzrə irəli sürülmüş analitik yanaşmalar araşdırılaraq onların Azərbaycan kontekstində mümkünlüyü yoxlanıldı.

**Tədqiqat işinin elmi yeniliyi:** aşağıdakı elementlərlə xarakterizə olunur:

- qiymət sabitliyinin təmin edilməsində məşğulluq səviyyəsinin idarə olunması siyasətinin rolu və əhəmiyyəti mübahisələndirilir;

- Birinci punktda göstərilənin tam əksi olaraq məşğulluq səviyyəsi üzrə effektiv nəticənin əldə olunmasında qiymətlər səviyyəsindəki artımın təsirinin idarə olunması siyasəti mübahisələndirilir;

- Azərbaycanda makrostabilliyə nail olmaq üçün tələblər müəyyən edilir.

**Nəticələrin elmi-praktiki əhəmiyyəti:** dissertasiya tədqiqatının nəticələri və müddəaları, Azərbaycanda makro sabitliyi təmin etmək üçün inflyasiya və işsizlik səviyyələrinin idarə olunması siyasətinin təkmilləşdirilməsi üçün xüsusi tövsiyələr ilə müəyyən edilir.

# I FƏSİL. İNFLYASİYA VƏ İŞSİZLİK ARASINDAKI ƏLAQƏNİN NƏZƏRİ ƏSASLARI

## 1.1. İnflyasiya və işsizlik ölkənin əsas makroiqtisadi göstəriciləri kimi

Makroiqtisadi performans hər bir ölkədəki "sükançı"ların bu əsas makroiqtisadi xidmətlərin təmin edilməsini maksimum dərəcədə artırma qabiliyyəti baxımından qiymətləndirilir. Bu məqamda tədqiqatın adında da istifadə olunan və tədqiqat boyunca açar əhəmiyyətə sahib olacaq makroiqtisadi göstəricilər anlayışını açmaq labüdləşir.

İqtisadi göstəricilər əsas etibarilə analitiklər tərəfindən cari və ya gələcək investisiya imkanlarını şərh etmək üçün istifadə olunan, miqyas baxımdan makroiqtisadi səviyyəli bir iqtisadi məlumat parçasıdır. Yəni iqtisadi göstəricilər dedikdə istənilən halda bütün iqtisadi düşüncə mərkəzlərində makroiqtisadi səviyyədə əhəmiyyət daşıyan məsələlər ağıla gəlir. Əlbəttə ki, mikroiqtisadiyyatda da müəyyən faktor və göstəricilər mövcuddur lakin onların əhəmiyyətlilik sferası və təsir dairəsi nəzərə alındıqda ikinci planda saxlanılmalarını və bütöv ölkə iqtisadiyyatı səviyyəsində deyil də, müəssisədaxili səviyyədə ələ alınıb işlənilməsi qəbuledilən olur. İqtisadi daha da dəqiqləşdirsək makroiqtisadi göstəricilər eyni zamanda bir iqtisadiyyatın ümumi sağlamlığını qiymətləndirməyə kömək edir.

Haqqında danışdığımız və hər bir hökumət aparatını məşğul edən ən başlıca makroiqtisadi göstəricilər aşağıdakılardır:

•İşsizlik (və ya məşğulluq) səviyyəsi;

•İnflyasiya səviyyəsi;

•Ümumi Daxili Məhsul (ÜDM) göstəricisi (müxtəlif aspektlərdən qiymətləndirilir).

Tədqiqat işində bunlardan iki göstərici təhlil olunacaq, onlar arasındakı əlaqənin nəzəri əsasları öyrəniləcək və bu əlaqənin dünya miqyasında və xüsusilə də Azərbaycandakı vəziyyəti araşdırılaraq təhlil ediləcək və sonrakı dövrlər üçün

iqtisadi qərarların qəbulunda müraciət oluna biləcək tutarlı akademik mənbənin formalaşdırılmasına cəhd olunacaq.

Toxunacağımız faktorlardan birincisi olan inflyasiya dərəcəsidir. İnflyasiya sadə şəkildə ifadə etsək ölkədəki qiymətlər səviyyəsindəki artımı ifadə edir. Bu termin istehlak qiymətləri indeksi ilə ölçülən yaşayış dəyərinin illik faiz artımını ifadə edir. İstehlakçı qiymət indeksləri, bir iqtisadiyyatda istehlakçılar tərəfindən satın alınan mal və xidmətlər təmsil edən səbətə əsaslanır. Səbətin tərkibi və nisbi ağırlıqları vaxtaşırı nəzərdən keçirilir. "İngilis dilinin Amerikan lüğəti"nin hüquqlarını əlində saxlayan "Merriam Webster" lüğətində sözün kökü olaraq şişmək anlamına gələn "inflate" sözü qeyd olunub. Azərbaycan dilinə inflyasiya şəklində keçmiş "inflation" kəlməsi isə həm ümumiişlək söz kimi, həm də terminologiya kimi təyin olunub. Birinci halda kəlmənin "şişirilmə vəziyyəti və bu vəziyyətdə olmaq" anlamını ifadə etməsi qeyd olunub ki, burada şişirilmə sözü olduqca əhəmiyyətli məqamdır. Terminologiya olaraq isə bu sözə "qiymətlərin davamlı və ümumi artımı" şəklində tərif verilib. Bu iki tərifdən yola çıxaraq iqtisadi anlamda inflyasiya sözünə aşağıdakı tərifi verə bilərik:

İnflaysiya hər hansı bir iqtisadiyyatda istehlakçı səbətində yer alan məhsulların keyfiyyətinin və funksionallığının mövcud vəziyyətdə saxlanılması halında məcmu bazar qiymətlər səviyyəsinin davamlı artımını ifadə edən başlıca makroiqtisadi göstəricilərdən biridir.

Lüğətdə qeyd olunduğu kimi davamlı və ümumi artım anlayışları açar nöqtələrdir. Belə ki, biz bazarda nə hər hansısa müəyyən bir məhsulun qiymətindəki artımı, nə də müvəqqəti xarakter daşıyan qiymət artımını ümumi inflyasiya olaraq qeyd edə bilmərik. Eyni zamanda verdiyimiz tərifdə də məhsulların keyfiyyətinin və funksionallığının mövcud vəziyyətdə saxlanılması məsələsini də qeyd etdik ki, bu da olduqca vacibdir. Məsələn ənənəvi mobil telefonlardan ağıllı telefonlara keçid dönəmində artıq zəruri tələbat vasitələrindən birinə çevrilmiş sözügedən məhsulun qiymətində ortaya çıxan kəskin dəyişikliyi biz inflyasiya olaraq təfsir edə bilmərik.

Çünki yeni nəsil və köhnə nəsil mobil telefonlar bir-birilərinin ekvivalenti olmaqdan çox uzaqdırlar.

Dünyada ölkədən asılı olaraq dəyişə bilsə də, əksər ölkələr inflyasiya səviyyəsinin əsas göstəricisi olaraq Azərbaycan da daxil olmaqla İstehlak Qiymətləri İndeksi (İQİ) göstəricisindən istifadə edir. İQİ paytaxtdakı ev təsərrüfatları üçün əhəmiyyətinə görə ağırlıqlı təxminən 100.000 mal və xidmətdən ibarət bir səbət düzəldərək inflyasiyanı ölçür. Ölkəmizdə İQİ ərzaq məhsulları, qeyri-ərzaq məhsulları və xidmətlər olaraq qruplaşdırılan çox sayda müxtəlif mal və xidmətləri özündə ehtiva edən istehlakçı səbətinə əsaslanır.

İQİ inflyasiyanın nisbətən yaxşı göstəricisi rolunda çıxış etsə də, məhdudiyyətləri var. Bu mal və xidmətlər "səbəti" mahiyyət etibarilə sabit olduğundan müəyyən mal və xidmətlərdə texnoloji inkişafları nəzərə almadığı üçün qiymət səviyyəsindəki artımı həddindən artıq şişirdə bilər ki, buna da yuxarıda inflyasiyaya tərif verdikdə toxunmuşduq. Buna görə də qeyd olunan səbət elastik olmalı və aktuallığını qorumaq məqsədilə davamlı şəkildə yenilənməlidir.

Bununla birlikdə, mərkəzi banklar qiymət dəyişikliklərini təhlil edərkən iqtisadiyyatda inflyasiyanın bir ölçüsü ilə məhdudlaşmır. Mərkəzi banklar ümumi olaraq öyrəndiyimiz adi (headline) inflyasiya ilə yanaşı əsas (core) inflyasiya ölçüsünü də tətbiq edirlər. İkinci göstərici iqtisadiyyatda əsas qiymət meyllərinin göstəricisi kimi istifadə edilir. Əsas inflyasiya ölçüsü iqtisadiyyatı "birdəfəlik" qiymət şoklarından arındırmaq məqsədi daşıyır ki, bu da həddən artıq şişirdilmənin və ya qiymət dəyişikliklərinə məruz qalmanın qarşısını almağa imkan verir.

Məsələn, 2011-ci ildə Yasi Siklonu Avstraliyanın Kvinslend bölgəsini vurduqda, bir çox banan məhsulu məhv oldu və banan tədarükü nəzərəçarpacaq dərəcədə azaldı. Nəticədə bu da qiymətlərin əhəmiyyətli artımı ilə müşaiyət olundu. Hətta müəyyən dövrlərdə bananın qiyməti 3 dollar səviyyəsinə qədər yüksəldi ki, bu da təxminən 2 dəfə bahalaşma anlamına gəlirdi (Stewart L., 2012: p.36-39).

Bu qiymət şoku, ehtimal ki, "headline" inflyasiya göstəricilərindəki cüzi artımlarla üst-üstə düşsə də, əsas inflyasiyada heç bir dəyişikliyə səbəb ola bilməz,

çünki qiymət artımının ölçülməsinin bu növündə iqtisadçıları və analitikləri yanlış təlimatlandıra biləcək bu kimi “birdəfəlik” qiymət şoklarını nəzərə alınmır.

Bu səbəbdən, iqtisadiyyatdakı inflyasiya səviyyələrini ölçərkən mərkəzi banklar, iqtisadçılar və analitiklər, daha böyük mənzərəni tam başa düşmək üçün iqtisadiyyatda qiymət dəyişikliklərinin bir neçə ölçüsündən istifadə edirlər.

İnflyasiya ilə səhmdar gəlirləri arasındakı əlaqə tez-tez çoxsaylı nəticələrlə müzakirə edilmişdir. İnflyasiyanın daha yüksək olduğu dövrlərdə bəzi sektorlarda korporativ mənfəət daha aşağı ola bilər, çünki istehsal xərcləri daha yüksəkdir, bu da qısa müddətdə istehlakçıları daha da narahat edə bilər. Bununla birlikdə, daha yüksək inflyasiya nisbətləri qeyri-elastik tələbin hökm sürdüyü mal və xidmətlər istehsal edən bəzi firmalara fayda verə bilər, çünki istehlakçılar müəyyən mal və xidmətlərdəki qiymət dəyişikliyinə çox reaktiv deyillər. ABŞ S&P 500-də aparılan bir araşdırma, inflyasiya sabit olduqda, ümumiyyətlə səhmlərin gəlirliliyinin daha yüksək olduğunu, daha yüksək inflyasiyanın artan fond bazarındakı dəyişkənliklə üst-üstə düşdüyünü göstərdi.

İnflyasiya bir ölkənin daxilindəki iqtisadi artımın əsas göstəricisi olan ÜDM ilə qarşılıqlı dəyişdirilə bilən bir əlaqəyə malikdir. Həqiqi ÜDM-nin potensial ÜDM-ni aşdığı biznes tsiklinin “bum” mərhələsində inflyasiya ümumiyyətlə hədəf səviyyəsinin üstündədir. Eynilə, faktiki ÜDM-nin potensial ÜDM-dən aşağı olduğu "çökəklik" və ya biznes tsiklinin tənəzzül mərhələsində, inflyasiya səviyyəsi adətən hədəf səviyyəsindən aşağı olur. 2009-cu ildə Qlobal Maliyyə Böhranı zamanı əksər ölkələrdə bu hal yaşanırdı (Patrice O., David T. 2015). Həm ÜDM-nin artım səviyyəsi, həm də inflyasiya səviyyəsində mənfi göstəricilər. ÜDM həmçnin cəmiyyətin həyat səviyyəsinin göstəricisi kimi də çıxış edir (bir çox məhdudiyyətlərlə). Bununla yanaşı, inflyasiyanın artması riyazi olaraq ÜDM-ni və beləliklə yaşayış səviyyəsini də həddən artıq şişirdə bilər. Bu məqamda da inflyasiyanın təsirindən dolayı ÜDM-nin real və nominal olmaqla iki qrupa ayrılan bir təsnifatını aparmaq lazım gəlir.

İnflyasiya və iqtisadi artım ilə bağlı tədqiqatlar klassik iqtisadi nəzəriyyələrə və müasir nəzəriyyələrə əsaslanaraq təhlil olunur. Bu gün inflyasiyanın iqtisadi

böyümənin sürətləndirilməsində nisbi əhəmiyyəti müzakirə mövzusu olaraq qalır. Əksər mərkəzi bankların pul siyasəti aşağı inflyasiya səviyyəsini və yüksək iqtisadi artımı davam etdirməyi hədəfləyir. Çox yüksək inflyasiya iqtisadiyyata kəskin şəkildə təsir edir, lakin mülayim inflyasiyanın uzun müddətdə istehsal artımını təşviq edə biləcəyinə dair bəzi dəlillər mövcuddur (Jonathan T., 2002). Hindistanlı məşhur iqtisadçı Rao Aiyaqari inflyasiyanı sıfıra endirməyin heç bir faydası olmadığını iddia edir (Rao A., 1990: p.2). inflyasiya ilə iqtisadi artım arasındakı əlaqə dolayısı ilə mənfidir və bu da əmək haqlarının artmasına və firmanın mənfəət səviyyəsinin azalmasına səbəb olur (Gokal and Harfi, 2004: p.15-18). Daha sonra klassik iqtisadi nəzəriyyə məhsul və məşğulluğun pulun yaradılması ilə deyil, əmək və kapitalın qısamüddətli istehsal funksiyası ilə müəyyən olunduğunu bildirdi.

Klassik nəzəriyyənin digər bir cəhəti pulun kəmiyyət nəzəriyyəsidir. Pulun uzunmüddətli perspektivdə həqiqi dəyişənlərə təsir etmədiyini, ancaq iqtisadiyyatda qiymət səviyyələrini təyin edə biləcəyini bildirir. Klassik artım nəzəriyyəsində inflyasiya ilə iqtisadi artım arasındakı əlaqə açıq şəkildə göstərilməsə də, iki dəyişən arasında mənfi bir əlaqənin olduğu dolayısı ilə iddia olunur. Məşhur iqtisadçılar Boyd and Çampın (Inflation, Banking, and Economic Growth) təhlili inflyasiyanın aktivlərin real gəlirliliyini azaltdığı nəzəri anlayışı ilə başlayır. Xüsusilə, yığıma mane olur və nominal faiz dərəcəsini artıran borclanmanı təşviq edir. Nominal faiz dərəcəsindəki artım, öz növbəsində, investisiyaya maneə törədir və dolayısı ilə artıma mane olur.

İnflyasiyaya dair ənənəvi baxışda inflyasiyanın çox yüksək olmamalı olduğu, əksinə iqtisadi artımı yüksəltmək üçün orta və sabit səviyyədə saxlanılmalı olduğu yönündə idi. Lukas (Lucas R., 1973), "qiymətləri və maaşları daha dəyişkən" edərək iqtisadi böyüməni sürətləndirmək üçün inflyasiyanın aşağı olması lazım olduğunu söyləyir. Sidrauski (Sidrauski M., 1967) inflyasiyanın böyüməyə heç bir təsiri olmadığını pulun bitərəf olduğunu bildirərək əsaslandırır. Məqaləsində pul fayda funksiyasına daxil edilmişdir (Tobin J., 1965). O, pul və kapitalın mükəmməl əvəzedicilər olduğuna inanır; bu səbəbdən inflyasiyanın böyüməyə uzun müddətli

müsbət təsiri olacaqdır. Digər tərəfdən, “cash in advance model” (əvvəlcədən nağd pul modeli) pul və kapitalın bir-birini tamamladığını iddia edir (Stockman A.,1981).

İnflyasiya ilə böyümə arasındakı əlaqə yaxşı nəticələrlə nəticələnərək təhlil edilmişdir. Məsələn, Malla (1997) panel analizindən istifadə edərək 11 OECD və Asiya ölkələri üçün inflyasiyanın böyüməyə təsirini araşdırdı. Nəticə göstərdi ki, OECD ölkələri üçün inflyasiya və böyümə nəzəriyyələrinin əksinə olaraq inflyasiya ilə artım arasında heç bir əlaqə mövcud deyildi. Bununla birlikdə, Asiya ölkələri üçün inflyasiya və böyümə arasında əhəmiyyətli bir mənfi əlaqə var idi. Bruno və İsterli (1998), 26 ölkəni əhatə edən araşdırmasında, daha yüksək inflyasiya nisbətinin böyüməni yubatdığını və inflyasiyanın aşağı olmasının bir iqtisadiyyata daha az zərər vurduğunu müəyyənləşdirdi. Bir ölkə inflyasiya həddinin 40% -dən yuxarı olduğu zamanda yüksək inflyasiya böhranı yaşayır. İnflyasiyanın iqtisadi böyümə üçün zərərli və ya faydalı olan dəqiq həddinə dair dəlillər, eyni qrup ölkələr analiz edildikdə belə nəticəsizdir. Khan və Senhadji (2001) qeyri-xətti kvadrat metodu istifadə edərək 140 sənayeləşmiş və inkişaf etməkdə olan ölkə üçün inflyasiyanın iqtisadi böyümə üzərindəki təsirini təhlil etdilər. 1960-1998-ci illər arasındakı datalara əsaslanan araşdırmada, istənilən böyümə sürətinə nail olmaq baxımından, yüksək sənayeləşmiş ölkələr üçün 1-3, inkişaf etməkdə olan ölkələr üçün 7-11 faiz arasında effektiv bir inflyasiya həddini təxmin etdilər. Həmin il Qilfason və Herbertsson (2001) panel reqressiyasından istifadə edərək 1960-1992-ci illərdə 170 sənayeləşmiş və inkişaf etməkdə olan ölkəni analiz etdilər. Yüzdə 10 ilə 20 arasında bir inflyasiya səviyyəsinin iqtisadi böyüməyə mənfi təsir göstərdiyini isbat etdilər. Qillman, Harris və Matyas (2004), “Pearson” kointeqrasiyasından və sabit və təsadüfi təsir metodlarından istifadə edərək, 1961-1997-ci illərdə 29 OECD və 18 APEC üzvü ölkələr panelinin inflyasiya və iqtisadi artım əlaqəsini qiymətləndirdilər. Həm də inflyasiyanın aşağı səviyyələrində daha güclü olan mənfi bir inflyasiya-böyümə təsiri müəyyən etdilər. OECD ölkələri üçün inflyasiyanın mənfi təsiri önəmlidir və nəticələr APEC ölkələri üçün eynidir. Mubarik və Riazuddin (2005) Pakistan üçün bir aparılan analizi araşdırdılar və inflyasiya səviyyəsinin 9% -dən yuxarı olmasının

iqtisadi böyüməyə mənfi təsir göstərdiyi qənaətinə gəldilər. Abbott və De Vita (2011), inflyasiyanın 1980-2004 illəri arasında 125 ölkə üçün fərqli məzənnə rejimləri altında böyüməyə təsirini araşdırdılar. Panel analizləri apardılar və üzən məzənnə rejimi tətbiq edən inkişaf etməkdə olan ölkələrin sabit və ya aralıq məzənnə sistemini qəbul edən ölkələrə nisbətən daha aşağı iqtisadi artım yaşadıqlarını təsbit etdilər. Akgül və Özedemir (2012) Türkiyə üçün inflyasiya və iqtisadi artım arasındakı qeyri-xətti əlaqəni qiymətləndirdilər və nəticədə 1,26 faizdən çox olmayan bir inflyasiyanın iqtisadi böyümə üçün uyğun olduğunu tapdılar; bu həddən yuxarı olan inflyasiya böyüməyə mənfi, aşağı göstərici isə müsbət təsir edir.

İqtisadçılar mütəmadi olaraq inflyasiyanın idarə oluna biləcəyini və ya öz-özünü tənzimləmək üçün müdaxilə edilməməli olduğu məsələsində mübahisə edir və müzakirələr aparırlar. Bununla birlikdə, Qlobal Maliyyə Böhranından bəri mərkəzi banklar müvafiq inflyasiya hədəflərinə çatmaq üçün kollektiv səylər göstərirlər. Buna, xüsusilə, ECB (Avropa Mərkəzi Bankı) və BOJ (Yaponiya Bankı) kimi ən inkişaf etmiş iqtisadiyyatların mərkəzi banklarının uyğun bir pul siyasəti mövqelərini tətbiq etmə cəhdləri aid oluna bilər. Bu yaxınlarda Yaponiya iqtisadiyyatda mal və xidmət qiymətlərində sürətli bir enmənin qarşısını almaq üçün faiz göstəricilərini mənfi səviyyədə qərarlaşdırmağa məcbur oldu. Bunun uzun perspektivdə Yaponiyanın anti-inflyasiya siyasətindən qaynaqlanmasının empirik əsasları araşdırmalara açıq olsa da, nəzəri olaraq əsaslandırılması olduqca ağlabatandır.

İşsizlik səviyyəsi (və ya tam əksi olan məşğulluq səviyyəsi) makroiqtisadi vəziyyətin ən vacib göstəricilərindən biridir. İşsizlik, işçi qüvvəsi təklifində rəqabətə davamlı olmayan əmək haqqı diferensialından qaynaqlanan sapmalar səbəbindən yaranır. 1945-cü ildən ən azı 1968-ci ilə qədər olan dövrdə, başlıca Avropa iqtisadiyyatlarında işsizlik səviyyəsi bugünkü standartlara görə son dərəcə aşağı idi. Məsələn, İngiltərədə bütün dövrdə işsizliyin orta səviyyəsi işçi qüvvəsinin təxminən 1,8%-ni təşkil edirdi, ən pis illərdə isə bu rəqəm 2.5 %-i keçmirdi. Buna səbəb olan əsas hərəkətverici qüvvə uğurlu siyasətdən çox avtonom xarakter daşıyırdı. Bu

qüvvələr arasında yeni məhsul və proses dalğaları, ticarətin genişlənməsi və dünya miqyasında iqtisadi inkişaf yer alırdı. Lakin istənilən halda ABŞ-a nisbətən Avropadakı işsizlik probleminin səbəbi onların əmək bazarı sektorunda yer alan qurumlarla əlaqəli idi. ABŞ əmək bazarlarının çevikliyinə görə daha üstündür.

Mövcud iqtisadi böhran, şirkətləri ixtisarlar etməyə məcbur edir ki, bu da işsizlik səviyyəsində dramatik bir artıma səbəbiyyət verir. Bir çox insan üçün iş itkisi, maddi sıxıntı, narahatlıq və sosial əlaqələrin və özünə rəğbət hissinin sarsılması ilə xarakterizə olunan stresli bir həyat hadisəsidir. Son dövrlərdəki tədqiqatlar daha çox yenidən işləmə müvəffəqiyyəti ilə əlaqəli dəyişənlərin müəyyənləşdirilməsinə yönəlmişdir (Kanfer və digərləri, 2006).

İşsizlik, işləmə qabiliyyətinə sahib olub və iş axtaran, lakin sahib olduğu keyfiyyətlərə uyğun iş tapa bilməyən şəxslərə aid edilən bir termindir. Bir fərdin işsiz kimi təsnif olunmasının hüquqi standartları ölkədən-ölkəyə dəyişə bilir. Lakin işsizlik səviyyəsinin müəyyən edilməsi dünyanın istənilən ölkəsində eyni riyazi hesablamaya əsaslanır. Yəni ölkədəki mövcud qanunvericiliyə əsasən işsiz kimi qeydə alınmış əhalinin sayının əmək bazarındakı məcmu əmək qüvvəsinə nisbəti müəyyən edilərək cari işsizlik səviyyəsi tapılır.

"İşsizlik" termini çətin və bir çox hallarda çaşqınlığa səbəb olan bir iqtisadi anlayış ola bilər, lakin böyük əksəriyyəti işdən çıxarıldıqdan sonra işə qayıtmaq üçün gözləyən insanları özündə ehtiva edən bir makroiqtisadi indikatordur. Bununla birlikdə işsizlik termini son dörd həftə ərzində işdən ayrılıb ali təhsil almaq, təqaüdə çıxmaq, əlillik və şəxsi məsələlər kimi müxtəlif səbəblərdən iş axtarmağı dayandıran şəxsləri əhatə etmir. Heç bir yerdə fəal şəkildə iş axtarmayan, lakin iş tapmaq istəyən insanlar belə işsiz sayılmırlar.

Maraqlıdır ki, son dörd həftə ərzində bir iş axtarmayan, lakin son 12 ayda fəal şəkildə iş axtaran insanlar “işçi qüvvəsinə az dərəcədə bağlı” kateqoriyasına daxil edilir. Bu kateqoriya içərisində iş tapmaq ümidlərini itirmiş insanları nəzərdə tutan “ruhdan düşmüş işçilər” adlı başqa bir kateqoriya da təsnifatlandırılır.

Yuxarıda göstərilən çox sayda təfərrüat və istisna bir çox insanı işsizliyin qeyri-müəyyən olduğuna və bu nisbətin işsizlərin sayını tam təmsil etmədiyinə inandırır. Buna görə də Azərbaycan qanunvericiliyində bu anlayışın konkret sərhədlərinin hansı şəkildə müəyyən edilmiş olmasına nəzər yetirmək vacibdir.

"İşi və qazancı olmayan, işə başlamağa hazır olub, müvafiq icra hakimiyyəti orqanında işaxtaran kimi qeydiyyata alınan, əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli vətəndaşlar işsiz statusu almaq hüququna malikdirlər" (Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu 2001 – Maddə 4.1). Sözügedən qanunun 3 və 4-cü maddələrində məşğul və işsiz əhalinin tərkibi konkret şəkildə müəyyən edilmişdir.

**Marksın işsizlik nəzəriyyəsi**

Kapitalist istehsal üsulunda bəzi işçiləri həddindən artıq işləmək, qalanlarını isə işsiz kasıbların ehtiyat ordusu olaraq saxlamaq çox təbiidir (Karl M., Theory of Surplus Value. 1863).

Marksistlər iqtisadi tələb və məşğulluq arasındakı əlaqəyə dair Keynsçi nöqteyi-nəzərini bölüşürlər. Ancaq bazar sisteminin əmək haqlarını kəsmək və iş yerində iştirak səviyyəsini azaltmağa meylinin bütövlükdə iqtisadiyyatda məcmu tələbin zəruri azalmasına və böhranlara səbəb olduğu xəbərdarlığı da vurğulayırlar. Karl Marksa görə, işsizlik qeyri-sabit kapitalist sistemə xasdır və kütləvi işsizliyin dövri böhranları gözlənilir. İşsizliyin qaçılmaz olduğunu və hətta kapitalist sistemin zəruri bir hissəsi olduğunu, bərpa və yenidən böyümənin də prosesin bir hissəsi olduğunu öz nəzəriyyəsində qeyd etdi. İlk baxışda işsizlik səmərəsiz görünür, çünki işsiz işçilər mənfəəti artırmırlar, lakin işsizlik dünya kapitalist sistemində sərfəlidir, çünki işsizlik sahibləri baxımından xərcləri olan əmək haqlarını aşağı salır. Kapitalist istehsal üsulunun nəticəsi olaraq, Marks işçilərin iqtisadi kimlikləri sayəsində yadlaşma və kənarlaşma yaşadıqlarını iddia etdi. Marksa görə, işsizliyi qalıcı bir şəkildə aradan qaldırmanın yeganə yolu kapitalizmi və əmək haqqı üçün məcburi rəqabət sistemini ləğv edib sonra sosialist və ya kommunist iqtisadi sistemə

keçmək olardı. Çağdaş marksistlər üçün davamlı işsizliyin mövcudluğu kapitalizmin tam məşğulluğu təmin edə bilməməsinin sübutudur.

**Klassik işsizlik**

Klassik və ya real əmək haqqı işsizliyi, bir iş üçün real əmək haqqı bazar təmizlənməsi səviyyəsindən yüksək olduqda iş axtaranların sayının boş yerlərin sayını aşmasına səbəb olduğundan dolayı baş verir. Digər tərəfdən, əksər iqtisadçılar, maaşların yaşana bilən maaşdan aşağı düşdüyünə görə, bir çoxunun əmək bazarından çıxmağı seçdiyini və artıq iş axtarmadığını iddia edirlər. Bu, xüsusilə az gəlirli ailələrin ictimai rifah proqramları ilə dəstəkləndiyi ölkələrdə daha doğrudur. Belə hallarda, əmək haqqı insanları ictimai rifah yolu ilə alacaqları şeylərdən daha çox əmək fəaliyyəti ilə məşğul olmağı seçməyə sövq edəcək qədər yüksək olmalıdır. Yaşana bilən əmək haqqından aşağı olan əməkhaqqı yuxarıda göstərilən ssenaridə əmək bazarında iştirakın aşağı düşməsi ilə nəticələnə bilər. Bundan əlavə, mal və xidmətlərin istehlakı artan işgüzar tələbatın əsas hərəkətvericisidir. Yüksək maaşlar işçilərin mal və xidmətlər istehlak etmək üçün daha çox gəlirə sahib olmasına gətirib çıxarır. Bu səbəbdən daha yüksək əmək haqqı ümumi istehlakı artırır və nəticədə əməyə tələb artır və işsizlik azalır.

Bir çox iqtisadçı artan dövlət tənzimləməsi ilə işsizliyin artdığını iddia edir. Məsələn, minimum əmək haqqı qanunları bəzi aşağı bacarıqlı işçilərin xərclərini bazar tarazlığının üstünə qaldırır və nəticədə davamlı işləmək istəyən insanlar qanunvericiliyin qoyduğu sərhəddən dolayı bu istəklərini reallaşdıra bilmədikləri üçün bu, işsizliyin artması ilə nəticələnir (məcburi tətbiq edilən minimal yeni və daha yüksək əmək haqqı indi onların rəqabətli mühitdəki real dəyərini üstələyir) əmək). İşdən çıxarılmanı məhdudlaşdıran qanunlar işə götürmənin daha riskli olmasına görə ilk növbədə müəssisələrin işə götürmə ehtimalını azalda bilər.

Bununla birlikdə, bu mübahisə, işsizliyə səbəb olan çox sayda faktoru görməməzliyə vuraraq maaş nisbəti ilə işsizlik arasındakı əlaqəni həddən artıq asanlaşdırır. Mörri Rotbard kimi bəziləri, (Murray R., 1988, 2010) minimum əməkhaqqı

standartı olmayacağı halda hətta sosial tabuların belə maaşların bazar təmizlənməsi səviyyəsinə düşməsinin qarşısını ala biləcəyini düşünürlər.

İqtisadçılar Riçard Vedder və Louell Qallavey, "İşdən kənar: İyirminci Yüz ildə Amerikada İşsizlik və Hökümət" (1993) kitabında, Amerikadakı maaş nisbətlərinin, məhsuldarlığın və işsizliyin empirik qeydlərinin klassik işsizlik nəzəriyyəsini doğruladığını iddia edirlər. Onların məlumatları 1900-1990-cı illər arasında ABŞ-da düzəldilmiş həqiqi əmək haqqı ilə işsizlik arasında güclü bir əlaqəni göstərir. Bununla birlikdə özləri məlumatlarının ekzogen hadisələri nəzərə almadığını müdafiə edirlər.

## 1.2. İnflyasiya və İşsizlik dərəcələrinin effektiv səviyyədə saxlanılması dövlətin iqtisadi siyasətinin tərkib hissəsi kimi

İnflyasiya ilə işsizlik arasındakı əlaqə ənənəvi olaraq tərs bir korrelyasiya olmuşdur. Lakin bu münasibət ilk baxışdan göründüyündən daha mürəkkəbdir və son 45 ildə müxtəlif vəziyyətlərdə bir neçə dəfə pozulmuşdur. İnflyasiya və məşğulluq ən geniş miqyasda nəzər yetirilən iki iqtisadi indikator olduğundan onlar arasındakı münasibətlərə və iqtisadiyyata necə təsir etdiklərinə dərindən toxunulacaqdır.

Əmək haqqı inflyasiyası və ya əmək haqqındakı dəyişiklik nisbəti iqtisadiyyatda inflyasiya üçün bir səbəb olaraq istifadə olunsa da, tam əks vəziyyətdə, yəni işsizlik yüksək olduğu zaman iş axtaranların sayı mövcud iş yerlərinin sayını xeyli üstələyir. Başqa sözlə, işçi qüvvəsi təklifi ona olan tələbdən daha çox olur.

Bu qədər işçi mövcud olduğu üçün, işəgötürənlərin daha yüksək əmək haqqı ödəməklə işçilərin xidmətlərinə müraciət etməsinə bir o qədər də ehtiyac yoxdur. Yüksək işsizlik dövründə əmək haqları ümumiyyətlə durğun qalır və əmək haqqı (və ya artan əmək haqqı) inflyasiyası mövcud olmur.

İşsizliyin az olduğu dövrlərdə əməyə olan tələb (işəgötürənlər tərəfindən) təklifi üstələyir. Belə bir sıx əmək bazarında, işəgötürənlər işçiləri cəlb etmək üçün ümumiyyətlə daha yüksək əmək haqqı ödəməlidirlər və nəticədə artan əmək haqqı inflyasiyası ortaya çıxır. İllər ərzində məhz buradan yola çıxaraq iqtisadçılar işsizlik və əmək haqqı inflyasiyası ilə ümumi inflyasiya nisbəti arasındakı əlaqəni araşdırdılar.

Filips, işsizlik və əmək haqqı inflyasiyası arasındakı tərs əlaqənin cəlbedici sübutlarını təqdim edən ilk iqtisadçılardan biri idi. Filips demək olar ki, tam bir əsr ərzində (1861-1957) Birləşmiş Krallıqda işsizlik və əmək haqqının dəyişmə dərəcəsi arasındakı əlaqəni araşdırdı və sonuncunun işsizlik səviyyəsi və işsizliyin dəyişmə dərəcəsi ilə izah oluna biləcəyini müəyyənləşdirdi (Phillips A. W., 1958).

Filips, işçi qüvvəsinə tələb yüksək olduqda və az sayda işsiz əmək qüvvəsi olduqda işəgötürənlərin əmək haqlarını olduqca sürətlə artırmasının gözlənilən olduğu hipetizini irəli sürdü. Bununla birlikdə, işçi qüvvəsinə tələb az olduqda və işsizlik yüksək olduqda, işçilər mövcud nisbətdən daha az əmək haqqı qəbul etməyə meyilli olmadıqları üçün əmək haqqı dərəcələri çox yavaş templə düşür.

Maaşlar və günəmuzd ödənişlər şirkətlər üçün böyük bir maliyyət olduğu üçün, artan əmək haqqı, bir iqtisadiyyatda məhsul və xidmətlərin bahalaşmasına gətirib çıxarmalı və nəticədə ümumi inflyasiya səviyyəsini yüksəltməlidir. O halda Filips əmək haqqı inflyasiyasından ziyadə ümumi qiymət inflyasiyası ilə işsizlik arasındakı əlaqəni müəyyənləşdirmiş oldu (şəkil 1).

**Şəkil 1: Qısa və Uzunmüddətli Filips Əyriləri**




**Mənbə:** Forder, James (2010). “The Historical Place of the Friedman-Phelps expectations”

1970-ci illərdə bir çox ölkələrdə həm inflyasiya, həm də staqflyasiya olaraq bilinən yüksək səviyyədə işsizlik yaşandı. Filips əyrisinə əsaslanan nəzəriyyələr bunun ola bilməyəcəyini iddia edirdi. Beləliklə də bu yanaşma Milton Fridmanın başçılıq etdiyi bir qrup iqtisadçı tərəfindən davamlı tənqidlərə məruz qaldı. Lakin hələ Samuelson və Solounun çox öncə 1960-cı ildə etdiyi qeyddə bildirilirdi: "Bütün müzakirələrimiz yaxın gələcəkdə baş verə biləcək hadisələrlə əlaqəli olaraq qısa müddətdə ifadə edildi" Samuelson və Solou 8 il əvvəl iddia etmişdi ki, uzun müddətdə işçilər və işəgötürənlər inflyasiyanı nəzərə alacaq, nəticədə gözlənilən inflyasiyaya yaxın əmək haqqı ilə əmək müqavilələri artacaq. O zaman işsizlik əvvəlki səviyyəsinə qayıtmağa başlayacaqdı, amma qısa perspektivdə Filips əyrisi özünü doğrultmalıdır. Bu nəticə, daha uzun müddətdə inflyasiya ilə işsizlik arasında

heç bir qarşılıqlı əlaqə olmadığını göstərir. Bu nəticə praktik səbəblərdən əhəmiyyətlidir, çünki bunun sayəsində mərkəzi bankların işsizlik hədəflərini təbii səviyyədən aşağı qoymamalı olduğu aydınlaşmış oldu.

Daha son tədqiqatlar aşağı səviyyəli inflyasiya ilə işsizlik arasında mülayim bir qarşıdurmanın olduğunu göstərir. Corc Akerlof, Uilyam Dikens və Corc Perri tərəfindən həyata keçirilən tədqiqat işləri (1996) inflyasiyanın 2 faizdən 0 faizə endiriləcəyi təqdirdə işsizliyin daimi olaraq 1,5 faiz artacağını nəzərdə tutur. Bunun səbəbi, işçilərin ümumilikdə real əmək haqlarının kəsilməsinə nominal olanlardan daha yüksək tolerantlığına sahib olmasıdır. Məsələn, bir işçi, inflyasiya yüzdə üç olduqda, inflyasiya sıfır olduqda yüzdə bir maaş kəsilməkdən daha çox əmək haqqı artımını qəbul edəcəkdir.

Filips əyrisinin ən azı iki fərqli riyazi nəticəsi var. Birincisi, ənənəvi və ya Keynsçi versiyadır. Daha sonra Robert E. Lukas, Jr. ilə əlaqəli yeni Klassik versiya da vardır.

**Nominal (pul) əmək haqqının təyin edilməsi**

Ənənəvi Filips əyri hekayəsi, Filipsin özü tərəfindən təsvir edilən bir növ Filips əyrisi ilə başlayır. Bu, nominal əməkhaqqının artım sürətini (gW) təsvir edir. Burada və aşağıda, g operatoru, sonrakı nominal əməkhaqqı səviyyəsi dəyişənin "böyümə faizinin" ekvivalentidir.

$$gW = gW^{\{T\}} - f(U) \qquad (1)$$

"Nominal əmək haqqı dərəcəsi" (W), müavinətlər və əmək haqqı vergiləri daxil olmaqla bir istehsalat işçisinə düşən ümumi əməkhaqqının nominal dərəcəsini nəzərdə tutan stenoqrafiyadır. Diqqət olunmalı məqam odur ki, bu yalnız istehsal işçilərinin pul maaşlarına yönəldilmişdir, çünki (aşağıda müzakirə edildiyi kimi) bu xərclər firmaların qiymət qərarları üçün çox vacibdir.

Bu bərabərlik bizə bildirir ki, nominal əmək haqqının artımı onun artım tendensiyasının (T qüvvəti ilə göstərilir) artımı və işsizlik səviyyəsindəki (U) eniş

dayanıqlı maliyyələşmə mexnizminin formalaşdırılması istiqamətində ilk addım "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanunun qəbul edilməsi hesab edilə bilər. Beləki, 30 iyun 2017-ci il tarixində təsdiqlənən qanunun 19-cu maddəsində qeyd edilir ki, özünüməşğulluğa kömək göstərilməsi işsizlikdən sığorta vəsaitləri hesabına maliyyələşdirilən tədbirlər sırasına daxildir. Qanun 2018-ci ilin 1 yanvar tarixindən qüvvədədir. 2018-ci ildə İşsizlikdən Sığorta Fondunun büdcə gəlirləri və xərcləri 89 milyon 40 min manat həcmində qərarlaşıb. Fondun illik büdcə xərcinin 40.2%-nin yaxud 35,8 milyon manatının özünüməşğulluq tədbirlərinin təşkilinə yönəldilib. Bu məbləğ ilk ayrılan vəsaitlə müqayisədə 6 dəfə artıqdır ki, bu da proqramın əhatə dairəsinin genişləndirilməsinə şərait yaradaır. Rəsmilər hesab edir ki, ayrılan vəsait 2018-ci ildə təxminən 7 min ailənin biznes planlarının maliyyələşdirilməsi ilə nəticələnib. Əgər 2017-ci ildə ünvanlı sosial yardım alan ailələrin sayının 132,4 min nəfər olduğunu nəzərə alsaq 2018-ci ildə onların təxminən 5 faizinin özününməşğulluq proqramı şərçivəsində gəlir dayanıqlığının təmin edilməsi mümkün olmuşdur. Lakin, kənd təsərüfatının mənfəət norması üzrə ölkə iqtisadiyyatının ən aşağı səviyyəli sektorlarından olmasını nəzərdən qaçırmaq olmaz. Bu isə dövlət proqramı çərçivəsində yaradılan məşğulluğun keyfiyyəti və eyni zamanda gəlir dayanıqlığı baxımından ciddi risk mənbəyinə çevrilə bilər. Qeyd edilən istiqamətdə risk səviyyəsinin azaldılması məqsədi ilə proqramın tətbiqi mexanizmlərinin aşağıdakı istiqamətlərdə təkmilləşdirilməsinə ehtiyac var:

- Hər bir regionun iqtisadi sektorlar üzrə mənfəət normasının qiymətləndirilməsi və müqayisəli üstünlüyə malik fəaliyyət sferalarının əksini tapdığı xəritənin hazırlanması (aidiyyatı dövlət qrumları tərəfindən);
- Regionlar üzrə tələbatın yüksək olduğu fəaliyyət sahələrinin müəyyən edilməsi və tövsiyyə xarakterli maarifləndirici materiallarının hazırlanması (aidiyyatı dövlət qrumları tərəfindən);
- Diferensial maliyyələşmənin tətbiq edilməsi – beləki, hər bir regiona xas prioritet sahibkarlıq istiqamətlərinin elan edilməsi və bu istiqamətdə təqdim edilən layihələrin təşviqi məqsədi ilə daha çox vəsaitin ayrılması;

- Dövlət Məşğulluq Xidmətinin regional idarələrində peşəkar konsaltinq xidmətinin təklif edilməsi;

Nəzərə alsaq ki, dövlət siyasəti özünüməşğulluq proqramının genişlənməsi istiqamətindədir, “keyfiyyətli məşğulluq” proqramın prioritet istiqamətlərindən biri olmalıdır. Əks halda maliyyələşdirilən biznes layihələrinin uğur göstəricisi azala bilər ki, bu da yoxsulluq və işsizliklə mübarizə tədbirlərinin effektivliyinə neqativ təsir edə bilər.

Lakin burada qeyd etmək lazımdır ki, qeyd olunan həll üsullarının əksəriyyəti uzun-perspektivdə öz təsirini göstərir və onların tətbiqi ciddi investisiya tələb edir. Nəticə etibarilə hökumətin məşğulluğu artırmağa istiqamətlənmiş davranışlarının özü inflyasiyanı tətikləyəcən faktorlar kimi çıxış edə bilər.

Beləliklə, Mərkəzi Bank valyuta siyasəti yeritməli və hökumətlə birgə istiqamətləndirilmiş iqtisadi siyasət dizayn etməlidi. Eyni zamanda ölkədə həyata keçirilən sosial – iqtisadi inkişaf proqramlarının realizasiyasına dəstək verilməlidir. Bunun nəticəsində də aşağıdakı tədbirləri görməklə məşğulluğun yuxarı səviyyəsində inflyasiyanın təkrəqəmli səviyyədə saxlanılmasına və maliyyə sabitliyinin qorunmasına nail olmaq mümkün ola bilər:

1.Özəl müəssisə və təşkilatlara iri dövlət sifarişlərinin verilməsi;

2. Kommersiya kreditlərinin faizlərinin aşağı salınması;

3. Pul emissiyasının qarşısının alınması;

4. Dövlətin iqtisadi sferaya müdaxilələrinin minimuma endirilməsi;

5. Vergi stimullaşdırılmasının tətbiqi;

6. İşsizliyin səviyyəsi və əmək haqqı arasında olan mütənasibliyin gözlənilməsi;

7. Qiymət və əmək haqqı sisteminin liberallaşdırılması;

8. Milli valyutanın dəyərdən düşməsinin qarşısının alınması;

9. Hökümətin gəlir və xərclərinin balanslaşdırılması, büdcə kəsrinin minimuma endirilməsi;

10.Dolayı vergilərə üstünlük verilməsi və s.

Fəslin yekununda onu qeyd edə bilərik ki, Azərbaycanda inflyasiya və məşğulluq arasında əlaqə istər qısamüddətli, istərsə də uzunmüddətli dövrdə bir o qədər də möhkəm bağlara sahib deyildir. Hər iki göstərici arasında müəyyən qanunauyğunluq və paralelliyin olması elə ilk baxışdan da hiss olunur lakin bu onların arasında səbəb-nəticə əlaqəsinin olduğunu göstərmir. Başqa sözlə inflyasiya və işsizlik səviyyələri biri səbəb, digəri nəticə olmaqdan daha çox hər ikisi ortaq və ya müxtəlif səbəblərin doğurduğu nəticələrdir. Bəzən oxşar reaksiya verirlər, bəzən də bu, dəyişik şəkildə özünü göstərir. Bu göstəriciləri formalaşdıran səbəblər arasında neft sektorunda hasilat və ixracının miqdarı, xarici investisiyanın həcminin, idxal-ixrac balansının, kənd təsərrüfatı və turizm kimi sektorların inkişaf dinamikasının öndə gələnlərdən olduğu qeyd oluna bilər.

# III FƏSİL. QİYMƏT SƏVİYYƏSİNDƏ SABİTLİYİN TƏMİN EDİLMƏSİNİN MƏŞĞULLUQ VƏ DOLAYISIYLA İQTİSADİ İNKİŞAFDA ROLU

## 3.1. Ölkədə məcmu qiymət səviyyəsinə təsir mexanizmlərinin təkmilləşdirilməsinin prioritetləri

Məcmu qiymət səviyyəsində dalğalanmalara səbəb olan təməl təsiredici faktorlar kimi göstərilən və Mərkəzi Bankla hökumətin birbaşa nəzarətindəki uçot dərəcəsi, pul təklifi, valyuta kursu, minimum əmək haqqı səviyyəsi və s. kimi indikatorların müəyyən edilməsindəki mexanizmlərin təkmilləşdirilməsi istiqamətində bir sıra prioritetlər mövcuddur. Bu istiqamətləri anlamaq üçün əvvəlcə onlardakı mövcud vəziyyətin necəliyini müəyyən etmək lazımdır. Belə ki, bazarda məcmu qiymətlərə ən əhəmiyyətli təsir gücünə sahib aktor kimi Azərbaycan Respublikasının Mərkəzi Bankı özünün inflyasiyayönümlü strategiyalarına reformist mövqe tutmağa çalışır. Xüsusilə son bir neçə ildə devalvasiya, uçot dərəcəsi kimi alətlərdən istifadə edərək bazardakı pul kütləsinə edilən kəskin təsirlərin nəticələrini analiz etdikdə ortaya bir sıra nəzərə alınmayan nəticələrin çıxdığını görürük. Məhz bu kimi halların aradan qaldırılması istiqamətində Mərkəzi Bank yeni mexanizmlər müəyyənləşdirməlidir. Bunun üçün isə məsələyə ilkin mərhələdən, yəni Mərkəzi Bankın növbəti dövr üçün hədəflənən inflyasiya səviyyəsini müəyyənləşdirdiyi andan başlamaq lazımdır.

Azərbaycan Respublikasının Mərkəzi Bankı növbəti dönəm üçün qitməylərdəki məcmu dəyişikliyin hədəflənməsi zamanı aşağıda qeyd olunan elementlərdən istifadə edir:

❖ Mərkəzi Bankın ödəmə potensialının möhkəmləndirilməsi;

❖ Qiymətlərin səviyyəsinin dayanıqlılığı üçün pul siyasətinə uzlaşdırılmış hədəflərin təyin edilməsi ;

❖ Ortamüddətli dövr üçün inflyasiya səviyyəsinin maksimal dəqiqliklə ehtimal olunması;

❖ Növbəti dönəmlərdə qarşıya qoyulan planlar və icra olunacaq fəaliyyətlə əlaqədar qərar qəbulu sistemi üzrə monetar siyasətin şəffaflığının təmin edilməsi;

❖ Aydın, konkret, düzgün və operativ məlumatlandırma strategiyasının qurulması;

Orta müddətli perspektivdə qiymətlər səviyyəsinin ölkəmizdə və demək olar ki, bütün dünyada mərkəzi banklar tərəfindən müəyyənləşdirilməsi inflyasiya rejiminin çox vacib elementi kimi təyin olunur. Mərkəzi Bank əvvəlcədən ehtimal və hədəf olunan inflyasiya səviyyəsini reallaşdırmaqla nəticə etibarilə toplumun etibar edəcəyi inflyasiya gözləntilərini formalaşır. Bu gözləntilərin vasitəsilə Mrəkəzi Bank bazardakı aktorların qərarlarına təsiretmə imkanına sahib olur. Yəni, buradan əldə edəcəyimiz nəticə odur ki, ehtimal olunan və idarə ediləcək həddə mövcud olan inflyasiya prosessi əslində makroiqtisadi siyasətin müəyyənləşdirilməsində olduqca effektiv vasitədir.

Kəskin qiymət yüksəlməsinə qarşı mübarizənin aparılması və qiymətlər səviyyəsində stabilliyin təmin edilməsinin əsas məqsəd kimi müəyyənləşdirilməsi isə monetar siyasətin xarakterindən irəli gəlir. Belə ki, bunun sayəsində ölkədə iqtisadi inkişaf planının davamlılığının, valyuta kursunun sabitliyinin təmin edilməsi eyni zamanda, bazardakı pul kütləsinin həcminin davamlı artımını tətbiq edərək, qarşıya qoyulan makroiqtisadi hədəflərə irəliləmək üçün uyğun zəmin formalaşdırılmış olur.

Şəffaf informasiya strategiyasının formalaşdırılması mümkün ən optimal inflyasiya səviyyəsinin proqnozlaraşdırılmasında ən əhəmiyyətli məqamlardandır. Qeyd olunan strategiyanın məğzi ondan ibarətdir ki, onun sayəsində ölkə iqtisadiyyatında maliyyə bazarları və real sektorları haqqında geniş və müfəssəl datalar toplanılır və iki formada istifadə olunur.

1. İqtisadi siyasəti müəyyən edən qurumların özü bu datalardan strateji qərarlar zamanı istifadə edir.

2. Ehtiyac olduğu təqdirdə bu məlumatlar ictimaiyyətə təqdim olunur.

Burada mütləq qeyd olunmalı məqam odur ki, hökumət bu informasiyaların yetərli həcmdə, lazım o1lan zamanda və tam dolğun və şəffaf qaydada təqdim olunmasını təmin etməlidir. Bu kriteriyalardan hər hansısa birinin qarşılanmaması ölkədəki iqtisadi oyunçuları çaşqın sala və onlar arasında xaosa səbəb ola bilər.

Mərkəzi Bankın ödəmə qabiliyyətinin artırılması məqsədilə xarici valyuta ehtiyatlarının optimal səviyyədə saxlanılması da qurumun gələcək fəaliyyətlərində baş verə biləcək potensial mənfi situassiyaların və təhlükələrin əvvəlcədən qarşısının alınmasında təsirli rol oynaya bilər. Belə ki, yüksək səviyyəli ödəmə potensialının formalaşdırılması, Mərkəzi Bankın fəaliyyətlərinə ictimaiyyət tərəfindən dərin inam yaradır. Ümumi olaraq aşağıdakı sxemdə Mərkəzi Bank tərəfindən inflyasiya səviyyəsinin proqnozlaşdırılması mexanizmi vizual şəkildə təqdim edilmişdir.

**Sxem 1: Mərkəzi Bankın inflyasiya səviyyəsini proqnozlaşdırması mexanizmi**




**Mənbə:** Nağdəliyev N. "İnflyasiyanın hədəflənməsi rejiminin nəzəri əsasları və Azərbaycan Respublikasında tətbiq edilməsi imkanları" Bakı, 2011, səh 12

Qeyd etmək lazımdır ki, heç də əsaslandırılmış data və statistikaların əhatəli və dəqiq olması, həmçinin proqnozlaşdırılma üçün edilən hesablamaların müfəssəlliyi gözləntilərlə reallığın birəbir üst-üstə düşəcəyinə zəmanət vermir. Bunun isə əsas səbəbi baş verən sapmaların ehtimal edilməsi mümkün olmayan və idarə edilməsi çox həssas qeyri-monetar və olduqca həssas faktorlardan qaynaqlanır. Məsələn, ölkəmizdə 2006-cı ildə illik inflyasiya göstəricisi 8,4% təşkil etmişdir. Mərkəzi Bankın bu istiqamətdə açıqlamalarına əsasən, inflyasiya göstəricisinin 23%-i qeyri-monetar amillərlə , 77 %-i isə monetar amillərlə əlaqəli olmuşdur. Ölkəmizin nümunəsində əldə edilən təcrübəyə əsasən deyə bilərik ki, inflyasiya bir sıra faktorların təsiri altında formalaşır ki, bunlar aşağıdakılardan ibarətdir:

1) Fiskal- valyuta ekspansiyası ;

2) Məsrəf inflyasiyası;

3) Əmək məhsuldarlığının artım tempi əmək haqqının artım tempi arasındakı qarşılıqlı əlaqənin və fərqin artması;

4) Tələbin təklifə nisbətən daha yüksək templə artımı və bu vəziyyətdə təklifin genişlənən tələbə nisbətən daha gec reaksiya verməsi;

5) enerjidaşıyıcılarının dünya bazarlaarında qiymət səviyyələrinin yüksəlməsinin təsiri altında tərəfdaş ölkələrdən inflyasiya idxalı.

Verilən qərarların və tətbiq olunan strategiyaların hüquqi fundamentinin sağlam olması başlıca şərtlərdən birisidir. Belə ki, yuxarıda qeyd olunan qurumlar üzrə hüquqi bazanın effektiv şəkildə müəyyən edilməsi onların fəaliyyətinə inamı gücləndirir. Başlıca təməl prinsip ondan ibarətdir ki, bu qurumlar, xüsusilə də Azərbaycan Respublikasının Mərkəzi Bankı öz fəaliyyətində və qəbul edilən qərarlarda tamamilə müstəqil olmalıdır. Azərbaycan Respublikası Mərkəzi Bankı Haqqında Qanunda onun müstəqilliyi vurğulanaraq, onun yaradılmasında əsas hədəfin qiymətlərin stabilliyinin təmin edilməsi olduğu qeyd olunmuşdur. Qanunda həmçinin Mərkəzi Bankın hesabatlılıq formasının konkret biçimdə çərçivələndirilməsinin inflyasiya səviyyəsinin düzgün şəkildə proqnozlaşdırılmasında rolu əks olunmuşdur. Ümumilikdə, Mərkəzi Bankın

inflyasiyaya qarşı əks-tədbirləri ilə bağlı səmərəli addımlarından biri də müstəqil fəaliyyət haqda indeks əmsalının artırılması hesab edilir.

**Sxem 2: Beynəlxalq Valyuta Fondu tərəfindən ölkələr üçün anti-inflyasiya tədbirlərinin tövsiyə olunan istiqamətləri**




**Mənbə:** Sofuyev T. "İnflyasiya və ona qarşı mərkəzi bankın mübarizə tədbirləri" Bakı, 2008,s.43

Yuxarıda göstərilən sxemdə Beynəlxalq Valyuta Fondu tərəfindən ölkələr üçün antiinflyasiya tədbirlərinin tövsiyə olunan istiqamətləri göstərilmişdir. Sxemə baxdıqda da görünür ki, inflyasiya sadəcə olaraq Mərkəzi Bankın tənzimləyəci bir prosses deyildir. Burada hökumətin büdcə-vergi siyasətinin məsələyə yön verdiyini görürük. Bu istiqamətlərin çox ümumiləşdirilmiş olması və vahid bir strateji xəttin bütün dünyada eyni refleks verəcəyini düşünmək əlbəttə ki, qüsurlu yanaşma olacaqdır. Lakin mövcud vəziyyətdə deyə bilərik ki, Azərbaycan Respublikası hökumətinin və Mərkəzi Bankının antiinflyasiya yönümlü fəaliyyətlərinin

yuxarıdakı şəkil-sxemdə qeyd olunan istiqamətlərlə uzlaşdırılması labüddür. Bununa yanaşı milli iqtisadiyyatdakı xüsusiyyətləri nəzərə alaraq bu prinsiplərin daxili şəraitlə uzlaşdırılması gərəklidir.

Qeyd etmək lazımdır ki, mövcud monetar siyasi prinsiplərin hazırkı dövrün şərtlərinə cavab verdiyini demək olmaz. Ölkəmizdə, xüsusilə də 1995- ci ilə qədər inflyasiya səviyyəsinin olduqca yüksək səviyyələrdə olması bir sıra radikal qərarların qəbuluna və buna uyğun antiinflyasiya xəttinin müəyyənləşdirilməsinə səbəb olmuşdur. Bu həm də hələ irihəcmli neft gəlirlərinin ölkəyə axmağa başlamadığı dövrdə iqtisadiyyatın xarici borc almaq potensialının yüksəldilməsinə yönələn addımlar. Belə ki, Beynəlxalq Valyuta Fondunun sabitləşdirici proqramlarından istifadə edərək, sərt antiinflyasiya siyasəti icra edilmiÇdir. Müstəqilliyin ilk onilliyində icra edilən pul-kredit siyasəti özündə aşağıda qeyd olunan bir sıra amilləri əhatə edib:

- Manatın digər xarici valyutalara nisbətdə məzənnəsinin sabitləşdirilməsi və həmin valyutanın dövriyyəsinin təmin olunması;
- Əmək haqqı üzərində nəzarətin daha da gücləndirilməsi;
- Ölkədə fəaliyyət göstərən müəssisələrdə istehsal olunan mal və xidmətlərinə qiymətlərin təyin olmasına nəzarət;
- Tədavüldə olan ümumi pul kütləsinin məhdudlaşdırılması;
- Kredit sahəsində xərci mərcliyin aradan qaldırılması və bu istiqamətdə fəaliyyətin daha da gücləndirilməsi;
- Mərkəzləşdirilmiş kredit resurslarının azaldılması;

Xüsusilə neft qiymətlərindən kəskin asılı olan bizim kimi iqtisadiyyatlarda inflyasiya siyasəti birbaşa bu sektorlarla harmoniyada olmalıdır. Məhz bu səbəbdən dolayıdır ki, məzənnə rejiminin tamamilə sərbəst buraxılması kifayət qədər təhlükəli ola bilər. Yanacaq-energetika sektorundakı ani dalğalanmaların milli valyuta üzərindəki təsir gücünün yüksək səviyyədə qalması üzən məzənnə rejimində çox ciddi böhranlar doğura bilər. Lakin digər tərəfdən də valyutanın sabit saxlanılması və bu ağırlığın Mərkəzi Bank üzərinə yüklənilməsi onun antiinflyasiya tədbirlərinin

effektivliyini kəskin şəkildə aşağı salır və fəaliyyətini əsas hədəfdən kənarlaşdırır. Bu baxımdan iqtisadiyyatın şaxələndirilməsi və valyuta siyasətinin də sərbəst buraxılması qarşıdakı başlıca prioritet olmalıdır.

### 3.2. Azərbaycanda işsizlik səviyyəsinə edilən təsirlərin iqtisadi inkişafda rolu

Rəsmi statistikalar ölkədə müstəqillik illərində, əsasən son iki onillikdə işsizlik əleyhinə dövlət tərəfindən atılan addımların əhəmiyyətli nəticələr verdiyini təsdiqləyir. İrihəcmli neft investisiyalarının ölkəmizə gəlişinin başladığı dövrlərdən, xüsusilə də 2004-cü ildən başlayaraq iqtisadiyyatın şaxələndirilməsi məqsədilə və əldə olunan neft gəlirlərinin bütün ölkəyə axımını təmin etmək üçün ardıcıl olaraq qəbul edilən dövlət proqramlarının regionların sosial-iqtisadi inkişafının sürətlənməsində böyük təsiri olmuşdur. Qeyd olunan sosial-iqtisadi proqramların nəticəsi olaraq ölkənin müxtəlif bölgələrində və paytaxt Bakıda çox ciddi rəqəmlərdə yeni iş yerləri açılmış və bu da əhalinin rifah şəraitini müsbət istiqamətdə bilavasitə tətikləmişdir.

Bunlara misal olaraq, “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramları”, “Azərbaycan Respublikasının Məşğulluq Strategiyası” (2006 − 2015-ci illər) və bunun icrası ilə əlaqədar olaraq ölkə Prezidentinin sərəncamı ilə “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı: 2007 − 2010” təsdiq edilmişdir. Bunlarla bərabər bütün iqtisadi rayonlar və həmin iqtisadi rayonlarının tərkibindəki şəhər və rayonların iqtisadi inkişafı üçün 17 sərəncam imzalanmışdır. Bu layihələrin ortaq xüsusiyyəti o idi ki, hər birinin əhalinin rifahına təsiri olduqca tez bir zamanda hiss olunurdu. Əsas da silsilə şəkildə qəbul edilən “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramları (2004 − 2008-ci, 2009 − 2013-cü və 2014 − 2018-ci illər)”-nın ölkədəki iqtisadi aktivlikdə payı böyükdür. Dövlətin bu addımları ölkədəki əmək bazarında tarazlıq yaradılmasına qismən nail olmuş hesab oluna bilər.

Əvvəla qeyd edək ki, əmək bazarında məcmu tələb və təklifin uzlaşdırılması sahəsində dövlət bazara aşağıda qeyd olunmuş bir sıra vasitələr hesabına yön verə bilər:

- sosial-ictimai zəmində layihələrin həyata keçirilməsi;

- sosial cəhətdən həssas hesab olunan qruplara daxil vətəndaşların əmək fəaliyyəti üçün yeni iş yerlərinin açılması;

- sahibkarlıq fəaliyyətinə və kiçik-orta həcmli biznes subyektlərinin sayının artırılması, eyni zamanda mövcud olanların inkişafına dəstək olmaq məqsədilə stimullaşdırıcı tədbirlərin təşkil olunması.

Aşağıdakı cədvəldə 2010–2019-cu illəri əhatələyən dövr üçün 3 illik tezliklə məşğul əhali sayının və çəkisinin inkişaf tendensiyası göstərilmişdir. Rəsmi statistikaya əsasən qeyd olunan dövr üçün məşğul əhalinin ümumrespublika səviyyəsində toplam artımının faizlə ifadəsi 14,08 olmuşdur. Ayrı-ayrı iqtisadi rayonlara gəldikdə isə bu göstərici paytaxt Bakıda və ona bağlı yaşayış məntəqələrində 18,9%, Abşeronda 10,6%, Gəncə-Qazaxda 13,8%, Şəki-Zaqatalada 15,1%, Lənkəran iqtisadi rayonunda 15,3%, Quba-Xaçmazda 14,4%, Aranda, Yuxarı Qarabağda 12,1%, Kəlbəcər-Laçında 14,8%, Dağlıq Şirvanda 15,8%, Naxçıvan Muxtar Respublikasında isə 17,6 faiz təşkil etmişdir.

**Cədvəl 2: Azərbaycanda iqtisadi rayonlar üzrə məşğul əhalinin sayı (2010-2019)**

| İqtisadi rayonlar \ illər | 2010 | 2013 | 2016 | 2019 | Artım (faizlə) |
|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası | 4329.1 | 4521.2 | 4759.9 | 4938.5 | 14,08 |
| Bakı şəhəri (qəsəbələrlə) | 1055 | 1090.2 | 1140.5 | 1190.7 | 12,86 |
| Abşeron | 256.5 | 264.6 | 277.4 | 283.6 | 10,57 |
| Gəncə-Qazax | 576.5 | 600.1 | 630.9 | 656 | 13,80 |
| Şəki-Zaqatala | 276 | 291.2 | 306.8 | 317.6 | 15,07 |
| Lənkəran | 381 | 399.1 | 423.9 | 439.3 | 15,30 |
| Quba-Xaçmaz | 228.5 | 239.9 | 252.5 | 261.3 | 14,35 |
| Aran | 847.1 | 887 | 936.7 | 968.2 | 14,30 |
| Yuxarı Qarabağ | 260.6 | 272.3 | 288.7 | 296.5 | 12,11 |
| Kəlbəcər-Laçın | 107.2 | 113.2 | 120.4 | 123.1 | 14,83 |
| Dağlıq Şirvan | 129 | 139 | 148.6 | 153.2 | 15,80 |
| Naxçıvan Muxtar Respublikası | 211.7 | 224.6 | 233.5 | 249 | 17,62 |

**Mənbə:** https://www.stat.gov.az/source/labour/az/009_1.xls

Göründüyü kimi regionlar üzrə göstəricilərin hər birini ayrı-ayrılıqda analiz etdikdə Bakı, Abşeron və Yuxarı Qarabağda artım nisbətinin orta respublika göstəricisindən mənfi istiqamətdə kənarlaşmış olduqlarını görürük. Naxçıvan Muxtar Respublikasında isə bu göstərici müsbət istiqamətdə bir xeyli kənarlaşma göstərmişdir. Bunların səbəblərinə fəslin sonlarına doğru toxunulacaqdır.

Lakin statistik analizlərə əsasən ölkədə məşğulluq və iqtisadi inkişafın heç də tam düz mütənasib göstəriciyə sahib olmadığını ortaya qoyan iki nəticə qeyd olunmalıdır.

1. Əldə edilən məlumatlara əsasən ölkə ərazisində istehsal olunan ÜDM-nin və milli gəlirin 80%-ə yaxını, dövlət büdcəsinə ödənilmiş məbləğlərin 85% –ə qədərini, Kiçik və Orta biznes subyektlərinin isə 70%-indən çoxu Bakı və Sumqayıt ərazilərinin payına düşmüşdür. Lakin yuxarıdakı cədvələ nəzər yetirdikdə Bakı və Abşeron iqtisadi rayonlarındakı məşğul əhalinin ölkə üzrə ümumi məşğul əhalinin təxminən 30 faizini təşkil etdiyini görürük.

2. Eyni zamanda qeyd etmək lazımdır ki, 2010-cu ildə ÜDM-nin real dəyəri 52,909 milyard dollardan 2019-cu ildə 48,172 milyard dollar səviyyəsinə geriləmişdir. Bu da təxmini olaraq 9 faizlik iqtisadi daralma deməkdir.

Qeyd olunan bu göstəricilər bizə onu deməyə imkan verir ki, ölkədə əmək fəallığının artırılması heç də məhsuldarlığa səbəb olmur. Başqa sözlə, ölkənin məşğulluq həddi təxminən 2013-2014-cü illərdə doyma həddinə çatmışdır. İqtisadiyyatda köklü islahatlar həyata keçirmədən mövcud texnologiya və strategiyalarla məhsuldarlığın yüksəlməsini gözləmək qeyri-mümkündür. Bunun da başlıca səbəbi ölkə iqtisadiyyatını mal və xidmətlərin istehsalı çərçivəsindən dəyərləndirdikdə neft-qaz sənayesinin çox ciddi təsirlərinin olmasıdır. Qeyd olunan sənaye sahəsi özünün pik həddini tamamlaması ilə birlikdə ölkədəki məhsuldarlığın da pik həddə çatması baş verdi. Sonrakı mərhələdə bu gəlirlərin iqtisadiyyatın digər sferalarına transferinin təmin edilməsindəki aşağı səmərəlilik bu gəlirlərin multiplikativ effektini aşağı endirmiş, hətta uzun müddətdə mənfi istiqamətdə yönləndirilmişdir. Nəticədə əksər inkişaf etməkdə olan ölkələr kimi Azərbaycan da

“orta gəlir tələsi”nə (medium income trap) ilişib qalmışdır. Yəni əslində yuxarıda qeyd olunan məşğulluğun stimullaşdırılması istiqamətindəki qısa müddətli sosial-iqtisadi layihələrə paralel olaraq uzun perspektivlər üçün əsaslı layihələrin işlənməsində yetərsizlik mövcuddur. Açılan yeni iş yerlərinin əksəriyyəti qeyri-dövlət sketoruna aid olsa da onların bir çoxu ya aşağı rentabelli, yaxud da uzunmüddətli fəaliyyət göstərə bilmədən bazarı tərk edən biznes sahələridir. Həmçinin bir çox əksər sahibkarlıq subyektləri də istehsala deyil, istehsalçı və istehlakçı arasında vasitəçilik fəaliyyəti göstərən pərakəndə satışla məşğul olan bizneslərdir.

**Cədvəl 3: Azərbaycanda iqtisadi sektorlar üzrə məşğul əhalinin sayı (2005-2019)**

| İqtisadi fəaliyyət növləri | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|
| İqtisadiyyat üzrə – cəmi | 4062.3 | 4329.1 | 4671.6 | 4759.9 | 4822.1 | 4879.3 | 4938.5 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 1573.6 | 1655.0 | 1698.4 | 1729.6 | 1752.9 | 1769.3 | 1777.7 |
| Mədənçıxarma sənayesi | 42.3 | 41.5 | 39.1 | 38.1 | 37.9 | 40.3 | 40.4 |
| Emal sənayesi | 198.4 | 208.9 | 229.8 | 242.2 | 249.1 | 254.8 | 262.6 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 27.9 | 30.6 | 27.1 | 27.3 | 27.5 | 27.5 | 30.5 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 23.9 | 25.2 | 25.4 | 30.6 | 30.8 | 41.1 | 30.2 |
| Tikinti | 211.9 | 287.5 | 336.4 | 343.8 | 347.9 | 354.5 | 366.2 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 634.8 | 626.7 | 693.7 | 699.6 | 705.9 | 706.1 | 712.0 |
| Nəqliyyat və anbar təsərrüfatı | 174.6 | 179.1 | 197.1 | 198.4 | 201.0 | 203.2 | 205.8 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 25.1 | 46.9 | 61.5 | 68.4 | 73.5 | 78.2 | 80.5 |
| İnformasiya və rabitə | 32.3 | 55.8 | 60.3 | 61.2 | 61.7 | 62.8 | 63.2 |
| Maliyyə və sığorta fəaliyyəti | 18.1 | 24.4 | 33.0 | 27.1 | 26.9 | 27.4 | 28.0 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 82.1 | 69.6 | 89.7 | 88.0 | 88.8 | 90.8 | 93.3 |
| Peşə, elmi və texniki fəaliyyət | 43.4 | 45.6 | 59.6 | 68.4 | 73.5 | 74.3 | 74.5 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 38.7 | 46.5 | 55.2 | 57.1 | 58.0 | 59.5 | 70.0 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 256.6 | 279.1 | 287.3 | 285.4 | 284.2 | 281.5 | 282.1 |
| Təhsil | 345.1 | 349.8 | 373.5 | 374.8 | 377.8 | 380.2 | 382.9 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 188.8 | 170.3 | 180.8 | 185.6 | 189.0 | 190.0 | 191.3 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 52.4 | 59.6 | 69.6 | 77.4 | 80.6 | 81.5 | 82.0 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 92.3 | 127.0 | 154.1 | 156.9 | 155.1 | 156.3 | 165.3 |

**Mənbə:** https://www.stat.gov.az/source/labour/az/002_1-2.xls

Xüsusilə, bu dövrdə yüksək texnologiya ilə əlaqəli olan sənaye sahələrinin diqqətdən kənarda qalması yüksək rentabelli istehsalın gerçəkləşməsinə əngəl törətmişdir. Nəticə etibarilə bu da əhalinin tərkibindəki məşğul əhalinin sayının artmasına rəğmən onun keyfiyyət standartları olduqca aşağıya düşmüş və son illərdə ümumi rifah vəziyyəti geriləməyə məruz qalmışdır.

Yuxarıda göstərilən statistikada Bakı və Abşeron iqtisadi rayonlarında məşğulluq səviyyəsinin artımının aşağı səviyyədə olmasının səbəbi tam olaraq bundan qaynaqlanır. Belə ki, yüksək sənaye sahələrində durğunluq bu bölgələrdəki ixtisaslı kadr tələbatına mənfi təsir göstərmiş və buna görə də işləyən əhalinin artımındakı inkişaf aşağıya enmişdir. Bu bölgələrdə məlum çox sayda işçi kütlə isə əsasən ölkənin digər, xüsusilə kənd təsərrüfatı üzrə ixtisaslaşmış bölgələrindən gələn və işləmək üçün gəldiyi yerə qeydiyyatı olmayan əsasən daha aşağı texnologiya səviyyəsinə sahib sektorlarda işləyənlərdən ibarətdir.

Əlbəttə ki, bunun səbəblərindən birisi də məşğulluqla bağlı qanunvericilikdə əhəmiyyətli boşluqların olmasıdır. Belə ki, yuxarıda qeyd olunan cədvəldən də göründüyü kimi kənd təsərrüfatı sektoru məşğulluğun təxmini 36 faizini təşkil edir. Lakin burada bir sıra maraqlı məqamlar var. İlk olaraq onu qeyd etməliyik ki, dövlət mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaq sahələrinin bölgüsünə əsaslanaraq adında pay torpağı olan hər bir fərdin məşğul şəxs kimi qeydə alınır. Real nəticə isə budur ki, bu torpaqların böyük əksəriyyəti çox aşağı qiymətlərlə icarəyə verilməkdədir. Çünki verilən torpaq mülkü fərdi məşğulluq üçün yetərli həcmdə deyildir. Bu baxımdan həmin insanların məşğul əhali kimi qəbul edilməsi özü qüsurludur.

**Cədvəl 4: Məşğulluqla bağlı başlıca statistik göstəricilər (2003-2017)**

| | 2003 | 2005 | 2010 | 2013 | 2017 |
|---|---|---|---|---|---|
| İqtisadi fəal əhalinin sayə – min nəfər | 4373,5 | 4380,1 | 4587,4 | 4757,8 | 5073,8 |
| Məşğul əhalinin sayı – min nəfər | 3972,6 | 4062,3 | 4329,1 | 4521,2 | 4822,1 |
| **o cümlədən mülkiyyət növləri üzrə:** | | | | | |
| dövlət | 1180,0 | 1229,8 | 1142,7 | 1169,4 | 1158,4 |
| qeyri-dövlət | 2792,6 | 2832,5 | 3186,4 | 3351,8 | 3663,7 |
| İşsiz əhalinin sayı, min nəfər | 400,9 | 317,8 | 258,3 | 236,6 | 251,7 |
| Məşğulluq xidməti orqanlarında rəsmi işsiz statusu verilmiş şəxslər, nəfər | 54365 | 56343 | 38996 | 362006 | 38481 |
| onlardan işsizliyə görə müavinət alanlar | 3111 | 2087 | 87 | 636 | 6974 |
| İqtisadiyyatdaməşğulolanqadınları sayı – minnəfər | 1905,9 | 1957,6 | 2101,7 | 2183,7 | 2319,3 |
| İqtisadiyyatdamuzdlaişləyənlərinsayı – minnəfər | 1226,6 | 1297,1 | 1382,9 | 1514,0 | 1525,0 |
| Muzdla çalışan işçilərin orta aylıq əməkhaqqı – manat | 77,4 | 123,6 | 331,5 | 425,1 | 528,5 |

**Mənbə:** https://azstat.org/statHtml/statHtml.do?orgId=994&tblId=DT_AB_003

Məşğulluq səviyyəsinin inflyasiya üzərindən iqtisadi inkişafa təsirini qiymətləndirdikdə əvvəla bir şeyi bilməliyik ki, bu göstəricilərin heç birinin faizlə ifadəsi 2000-ci ildən bu yana mənfi qiymət almayıbdır. Bu baxımdan iki indikator arasında tərs mütənasib bir əlaqənin mövcud olduğu dövr olmadığı qeyd olunmalıdır.

Bununla yanaşı vurğulamaq lazımdır ki, inflyasiya həddinin nisbətən daha yüksək olduğu 2004-2008-ci illərdən sonrakı məşğulluq səviyyəsindəki artım 0,9 faizdən 1,2 faizə yüksəlmiş, məşğul əhalinin də ümumi əhali içərisində payı kəskin şəkildə yüksəlmişdir. İşsizlik səviyyəsi həmin dövrdə ilk dəfə olaraq ikirəqəmli hədlərdən aşağı enmişdir. Lakin statistik göstəricilərə əsaslanaraq bu iki indikator arasında birbaşa əlaqənin olduğu söyləmək yanlış olacaqdır. Belə ki, əsas etibarilə

bu göstəricilərin hər ikisi ölkənin real ixrac səviyyəsindən asılı olaraq öz aralarında tərs mütənasib şəkildə dəyişirlər. Bunun da əsas səbəbi ölkə iqtisadiyyatının xammal və ara məhsulların ixracından kəskin asılılığıdır. Belə ixracatın yüksək səviyyədə olduğu illərdə inflyasiya ikirəqəmli həddə qədər yüksəliş göstərə bilir, paralel olaraq bu işsizlik səviyyəsinin aşağı enməsinə səbəb olur.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Əldə olunan yekun nəticələr 2015-ci ildəki böhrandan sonrakı dövrdə hər iki sahədə struktur islahatların ortaya qoyulmasına cəhdlər göstərildiyini təsdiqləyir. Lakin hələ də bu iki məsələ üzrə ölkə iqtisadiyyatının sağlam təməllərə sahib olduğunu qeyd edə bilmərik.

Hökumətin işsizliyə qarşı hazırda etdiyi və bundan sonra da etməli olduğu tədbirlərin başında şübhəsiz ki, ixtisaslaşdırmaya investisiyanın edilməsi, işsizlik müavinatının əlçatanlığının yüksəldilməsi, minimal əməkhaqqının effektiv səviyyədə müəyyənləşdirilməsi, yeni və xüsusilə də kiçik və orta sahibkarlıqlara təşviq paketlərinin davam etdirilməsi və digər bənzər proqramlar gəlir. Lakin bu proqramlar qısa yox orta və uzun perspektivləri əhatə etməlidir.

İnflyasiya məsələsində isə Mərkəzi Bank valyuta siyasəti yeritməli və hökumətlə birgə istiqamətləndirilmiş iqtisadi siyasət dizayn etməlidir. Eyni zamanda ölkədə həyata keçirilən sosial – iqtisadi inkişaf proqramlarının realizasiyasına dəstək verilməlidir.

Araşdırma həmçinin qeyd olunan bu iki indikator arasındakı birbaşa əlaqənin ölkəmizdəki vəziyyətini də aydınlaşdırır. Gəlinən yekun qənaət budur ki, Azərbaycanda inflyasiya və məşğulluq arasında əlaqə istər qısamüddətli, istərsə də uzunmüddətli dövrdə bir o qədər də möhkəm bağlara sahib deyildir. Hər iki göstərici arasında müəyyən qanunauyğunluq və paralelliyin olması elə ilk baxışdan da hiss olunur, lakin bu onların arasında səbəb-nəticə əlaqəsinin olduğunu təsdiqləmək üçün yetərli deyildir. Başqa sözlə inflyasiya və işsizlik səviyyələri biri səbəb, digəri nəticə olmaqdan daha çox hər ikisi ortaq və ya müxtəlif səbəblərin doğurduğu nəticələrdir. Bəzən oxşar reaksiya verirlər, bəzən də bu, dəyişik şəkildə özünü göstərir. Bu göstəriciləri formalaşdıran səbəblər arasında neft sektorunda hasilat və ixracının miqdarı, xarici investisiyanın həcminin, idxal-ixrac balansının, kənd təsərrüfatı və turizm kimi sektorların inkişaf dinamikasının öndə gələnlərdən olduğu qeyd oluna bilər.

Lakin onu da qeyd etmək lazımdır ki, Məşğulluğun qeyd olunan səbəbkar faktorlarla arasındakı əlaqə hər zaman birxətlidir. Yəni məsələn ixracın artımının yüksəlməsi hər zaman məşğulluq səviyyəsinin də yüksəlməsinə gətirib çıxarır. Qiymətlər səviyyəsində isə bu əlaqə özünü iki fərqli fazada özünü göstərir. Birinci fazada qeyd olunan faktorların bum mərhələsinə qədər yüksəlişini əhatə edir. Həmin dövrdə bazar dayanıqlı təməllərə səbəb olmadığından dolayı bu məcmu qiymətlər səviyyəsini yüksəlmək istiqamətində tətikləmişdir. İkinci fazada isə bazarda artıq sabitlənmiş təsirlərə (əslində bazarın sağlam olduğu zamanlarda bu faktorlar müsbət effektə sahibdir) qarşı özündə immunitet formalaşdırır və inflyasiya normal hədlərə geriləyir.

Hökumət və Mərkəzi Bank fəaliyyətlərini harmoniya etdirdikləri təqdirdə aşağıdakı tədbirləri görməklə məşğulluğun yuxarı həddində inflyasiyanın təkrəqəmli səviyyədə saxlanılmasına və maliyyə sabitliyinin qorunmasına nail olmaqda çətinlik çəkməyəcəkdir:

1.Özəl müəssisə və təşkilatlara rentabelliyi yüksək iri dövlət sifarişlərinin verilməsi;

2. Kommersiya kreditlərinin faizlərinin aşağı salınması;

3. Pul emissiyasının qarşısının alınması;

4. Dövlətin iqtisadi sferaya müdaxilələrinin minimuma endirilməsi;

5. Vergi stimullaşdırılmasının tətbiqi;

6. İşsizliyin səviyyəsi və əmək haqqı arasında olan mütənasibliyin gözlənilməsi;

7. Qiymət və əmək haqqı sisteminin liberallaşdırılması;

8. Milli valyutanın dəyərdən düşməsinin qarşısının alınması;

9. Hökümətin gəlir və xərclərinin balanslaşdırılması, büdcə kəsrinin minimuma endirilməsi;

10. Dolayı vergilərə üstünlük verilməsi və s.

Təqdiqatın aparılmasında məqsəd Azərbaycanda inflyasiya səviyyəsinə təsir vasitəsilə gələcəkdə həyata keçiriləcək makroiqtisadi siyasətdə əvvəlki dövrlərin

təcrübəsindən yararlanaraq hazırlanmış əsaslı istiqamət irəli sürən elmi bazanın formalaşdırılması idi. Belə ki, praktiki əhəmiyyət kəsb edən bu elmi araşdırma ölkədə işsizlik və inflyasiya göstəricilərinin effektiv səviyyədə saxlanılması üçün hər iki sahədə məqsədyönlü addımlar atan qurumların qərar qəbulunu daha da asanlaşdırmağa xidmət edəcəkdir. Eyni zamanda hazırlanmış elmi vəsait sonrakı mərhələlərdə konkret nəticələrə sahib və mövzu haqqında ətraflı fikir oyandıran metodoloji vasitə kimi istifadə oluna bilər. İstər elmi, istərsə də praktiki baxımdan öncədən qarşıya qoyulmuş aşağıdakı hədəflərə nail olunmuşdur:

- İnflyasiya və İşsizliyin nəzəri əsasları əhatəli şəkildə açıqlanmışdır;
- İnflyasiya və işsizlik səviyyələri üzrə bu ana qədər ölkədə və beynəlxalq miqyasda həyata keçirilmiş empirik araşdırmalar təhlil edilmişdir;
- Hər iki indikatorun öz aralarındakı sistematik bağlantının ölkəmizdəki vəziyyəti müəyyənləşdirilmişdir;
- Qeyd olunan faktorların müxtəlif hədlərdə makroiqtisadi stabilliyə və rifah şəraitinə hansı formada təsir göstərməsi müəyyənləşdirilmişdir;

Hökumət və Mərkəzi Bank tərəfindən fərqli müddətlər üçün atılması labüd olan iqtisadi addımlar müəyyənləşdirilmişdir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Azərbaycan Respublikası Mərkəzi Bankı, Pul siyasəti icmalı 2019 Yanvar-Dekabr.
2. Azərbaycan Respublikası Mərkəzi Bankı, Pul siyasəti icmalı 2020 Yanvar-Sentyabr.
3. Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramı.
4. Azərbaycan Respublikası regionlarının 2009-2013-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramı 14 aprel 2009.
5. Azərbaycan Respublikası Vergi Məcəlləsi (2000).
6. Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu (2018).
7. Azərbaycanın xarici iqtisadi əlaqələri 2013, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı 2012.
8. Bayramov Ə.İ. Qlobal maliyə böhranı. Neoliberal inkişaf paradiqmasının süqutu. Respiblika qəzeti 15 yanvar 2009.
9. Əliyev F.B. (2015) "İnvestisiya layihələrinin Təhlili və dəyərləndirilməsi" Bakı "Azərnəşr" 234 səh.
10. Hacıyev Ş. (2012) "Dünya iqtisadiyyatının tarixi" Bakı "Azərnəşr" 554 səh.
11. Hacıyev Ş., Bayramov Ə. (2012) "Dünya iqtisadiyyatının tarixi" Bakı "Elm" 423 səh.
12. Hüseynov T. (2015) "Azərbaycanda İnvestisiyalar" Bakı "Elm" 523 səh.
13. İqtisadi və Sosial İnkişaf Mərkəzinin tədqiqat qrupu (2018). "Azərbaycanda özünüməşğulluq siyasətinin mövcud vəziyyəti və inkişaf perspektivləri".
14. İmanov E.S., Babaşov R.H., Dayiyev E.M. (2015) "iqtisadi islahatlar şəraitində əhalinin sosial müdafiəsinin təşkili məsələləri, Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri, İqtisadi inkişaf Nazirliyi İqtisadi İslahatlar Mərkəzi" Bakı "Azərnəşr" 534 səh.

15. İşsizlikdən sığorta haqqında Azərbaycan Respublikasının Qanunu (2017).

16. Mehdiyev R. (2017) “Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti” Bakı “Şərq-Qərb” 367 səh.

17. Məmmədov İ. S. (2015), Azərbaycan sənayesində investisiya fəaliyyəti və onun təkmilləşdirilməsi. Bakı, “Elm” 345 səh.

**İngilis dilində**

1. Abbott A. and De Vita G. (2011). “Revisiting the relationship between inflation and growth: A note on the role of exchange rate regimes”.

2. Aiyagari S. R. (1990). “Deflating the case for zero inflation”, Quarterly Review, Federal Reserve Bank of Minneapolis, p.2–11.

3. Akerlof George A, Dickens William T, Perry George L. (2000). "Near-Rational Wage and Price Setting and the Long-Run Phillips Curve" Brookings Papers on Economic Activity.

4. Akgul I. and Ozdemir S. (2012). “Inflation threshold and the effects on economic growth”, p.85–106.

5. Aydın C., Esen O., and Bayrak M. (2016). “Inflation and Economic Growth: A Dynamic Panel Threshold Analysis for Turkish Republics in Transition Process”, p.196–205.

6. Baharumshah A. Z., Slesman L., and Wohar M. E. (2016). “Inflation, inflation uncertainty, and economic growth in emerging and developing countries: Panel data evidence”, p.638–657.

7. Barro R. J. (1995). “Inflation and economic growth”, National bureau of economic research.

8. Barro R. J. (1996). “Inflation and growth”, Federal Reserve Bank of St. Louis Review, p.153–169.

9. Baumol W. J. (1999). “Retrospectives: Say’s Law”, The Journal of Economic Perspectives, 13(1), p.195–204.

10. Benhabib J. and Spiegel M. M. (2009). "Moderate inflation and the deflation–depression link", Journal of Money, Credit and Banking 41(4), page: 787–798.

11. Blanchard Olivier (2000). "Macroeconomics" (Second ed.), p.149–155.

12. Blanchard Olivier, Gali Jordi (2007). "Real Wage Rigidities and the New Keynesian Model. Journal of Money, Credit, and Banking", p.35–65.

13. Boyd J. H. and Champ B. A. (2006). "Inflation, banking, and economic growth", Economic Commentary.

14. Ceyda Oner. "İnternational Monetary Fund. How Economies Function. Inflation: Prices on the Rise".

15. Chair Janet, Yellen L. (2017). Inflation, Uncertainty, and Monetary Policy

16. Chang R. (1997). "Is Low Unemployment Inflationary?"

17. Chia-Nan Wang and Anh Luyen Le (2018). "Measuring the Macroeconomic Performance among Developed Countries and Asian Developing Countries: Past, Present, and Future".

18. Clarida Richard, Gali Jordi, Gertler Mark (1999). "The science of monetary policy: a New-Keynesian perspective", Journal of Economic Literature.

19. Clarida Richard, Gali Jordi, Gertler Mark (2000). "Monetary Policy Rules and Macroeconomic Stability: Evidence and Some Theory", The Quarterly Journal of Economics, p.147-180.

20. Domitrovic Brain (2011). "The Economics Nobel Goes to Sargent and Sims: Attackers of the Phillips Curve".

21. Fisher Irving (1973). "I discovered the Phillips curve: A statistical relation between unemployment and price changes", Journal of Political Economy. Reprinted from 1926 edition of International Labour Review, p.496-502.

22. Foluso A. Akinsola, Nicholas M. Odhiambo (2017). "Inflation and Economic Growth: a Review of The International Literature".

23. Forder James (2014). "Macroeconomics and the Phillips Curve Myth", Oxford University Press.

24. Forder, James (2010). “The historical place of the “Friedman-Phelps” expectations critique”, p.493–511.

25. Friedman Milton (1968). “The Role of Monetary Policy”, American Economic Review.

26. John Phelan (2012). "Milton Friedman and the rise and fall of the Phillips Curve".

27. Jonathan Temple (2000). “İnflation and Growth: Stories Short and Tall”.

28. Humbatova, S., Hajiyev, N., Gasimov, R. K., & Tanriverdiyev, S. (2018). Interaction of Production Cost, Price and Labour Factors in Increase of Competitiveness in Agrarian Sector of Azerbaijan. Bulgarian Journal of Agricultural Science, 24 (2018), 23-34. Keynes John Maynard (1924). “Monetary Reform”, p.54–55.

29. Oliver Hossfeld (2010). “US Money Demand, Monetary Overhang, and Inflation Prediction”.

30. Phelps Edmund S. (1967). "Phillips Curves, Expectations of Inflation and Optimal Unemployment over Time", Economica. 34 (135), p.254–281.

31. Phelps Edmund S. (1968). "Money-Wage Dynamics and Labor Market Equilibrium". Journal of Political Economy, p.678–711.

32. Phillips A. W. (1958). “The Relation between Unemployment and the Rate of Change of Money Wage Rates in the United Kingdom, 1861-1957”.

33. Roberts John M. (1995). “New Keynesian Economics and the Phillips Curve”

34. Romer David (2012). “Dynamic Stochastic General Equilibrium Models of Fluctuation”.

35. Samuelson Paul A., Solow Robert M. (1960). “Analytical Aspects of Anti-Inflation Policy”, American Economic Review. p.177–194.

**Rus dilində**


1. Алиев Т., Абдуллаева Н. (2014) Адаптация организационно-производственных систем промышленных предприятий к условиям рыночных преобразований. - Баку елм, 128 стр.

2. Гордеева О.В. (2013), Принципы эффективного налогового регулирования.// Финансы, №9, стр.33-36.

3. Корнаи Я. (2012), “Инновации и динамизм: взаимосвяз систем и технического прогресса”. ж-ль “Вопросы Экономики”, №4, стр.6-7.

4. Кулиев Т.А. (2017) Регулируемая рыночная економика. - Б. 450 стр.

5. Куряева А.В. Людвиг фон Мизес “Человеческая деятельность: Трактат по экономической теории”, пер. с 3-го испр.англ.изд. - Челябинск: Социум, (2012), 878 стр.

6. Ламбен Ж.Ж. (2014), “Стратегический маркетинг. Евро - пейская перспектива”, С-Пб, Наука, 589 стр.

7. Райнерт Э.С. (2012), “Как богатые страны стали богатыми, и почему бедные страны остаются бедными”, М:Изд.дом ВШЭ, 384 стр.

8. Смит А. (2015), Исследование о природе и причинах богатства народов. Книга I-III, М.: Изд-во: Наука, 721 стр.

9. Соколов М.М. (2018), Изменения в амортизационной по- литике как особая форма налогового воздействия на развитие экономики//Все о налогах, №3, стр.23-29.

10. Харрод Р., Хансен Э. (2015), Классики кейнсианства. М.: Экономика, 864 стр.

11. Чубайс А. (2015) Инновационная экономика в России: что делать? Журнал “Вопросы Экономики”, №1, стр.120-126.

12. Шарп У. (2012) Инвестиции. Москва, 343 стр.

13. Шеремета В.В. (2015) том 1.- М.: Высшая школа, 512 стр.

14. Шилов А. (2018), Инновационная экономика, ж-ль “Вопросы Экономики”, №1, стр.127-137.

15. Шумпетер Й. (2016), Теория экономического развития. М.: Прогресс, 401 стр.

## İnternet resursları

1. http://m.apa.az
2. http://papers.ssrn.com
3. http://transparency.az
4. http://unec.edu.az
5. http://www.stat.gov

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** İstehlak qiymətləri indeksi (əvvəlki ilə nisbətən, faizlə. 1993-2019)............................37

**Cədvəl 2**: Azərbaycanda iqtisadi rayonlar üzrə məşğul əhalinin sayı (2010-2019)..........................................................................................................................59

**Cədvəl 3**: Azərbaycanda iqtisadi sektorlar üzrə məşğul əhalinin sayı (2005-2019)..........................................................................................................................61

**Cədvəl 4:** Məşğulluqla bağlı başlıca statistik göstəricilər (2003-2017).......................................62

## Şəkillərin siyahısı

**Şəkil 1:** Qısa və uzun müddətli filips əyriləri..................................................................................24

**Şəkil 2:** Azərbaycanda inflyasiya səviyyəsinin tendensiyası (2000-2015).................................35

## Sxemlərin siyahısı

**Sxem 1:** Mərkəzi Bankın inflyasiya səviyyəsini proqnozlaşdırması mexanizmi..........................54

**Sxem 2:** Beynəlxalq Valyuta Fondu tərəfindən ölkələr üçün antiinflyasiya tədbirlərinin tövsiyə olunan istiqamətləri..........................................................................................................56